RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 55 (8371) CÜMƏ AXŞAMI, 12 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Genişmiqyaslı islahatlar dövrünün yeni siyasi konfiqurasiyası

### İlham Əliyevin tezisləri, yeni siyasi sistemin konturları və parlamentdə başlanan dəyişikliklər…

Prezident İlham Əliyevin parlamentin yeni çağırışının deputatları qarşısındakı çıxışı dövlət başçısının yalnız qanunverici hakimiyyət mənsublarına təbriki, tövsiyələri, birgə əməkdaşlıq çağırışları kontekstində məhdudlaşmadı. Nəzərə alaq ki, bu nitq iki il öncə növbəti müddətə səlahiyyətinin icrasına başlayarkən Prezidentin elə bu binada elan etdiyi müasir islahatlar dövrü prioritetlərinin artıq tam yeniləşən hədəflərini ehtiva edirdi. Eyni zamanda həm inauqurasiya tezislərinin davamı, həm də daha çox ictimai-siyasi motivli idi.

#### Prezident Milli Məclisi siyasi sistemin modernləşmə mərkəzi kimi görür

Prezidentin çıxışlarının mövzu dairəsi nə qədər fərqli olsa da, mahiyyətcə dəyişməz üslubu var. Bu nitqlər deklorativlikdən, bəlağətdən, süni ritorikadan uzaqdır, hesabat yönümlüdür, uğurlarla bərabər, hökmən problemlərə toxunulur, onların həlli yolları göstərilir, ümumi fəaliyyətin və inkişaf trendinin yeni istiqamətləri elan edilir.

Və bu üslub Prezidentin çıxışlarına ictimai marağın yüksək səviyyəsini daim təmin edir. Vətəndaşlar ölkə rəhbərinin bəzən həftə ərzində iki dəfə onlara öz fəaliyyətinin və ölkədəki sosial, iqtisadi, siyasi durumun hesabatını verməsindən məmnundur.

Eyni zamanda əhali onu narahat edən məqamlardan Liderin də xəbərdar olduğunu və onların həlli üçün çalışdığını aydın görür, problemlərin "hər şey yaxşıdır, gözəldir və müsbətdir" pərdəsi altında gizlədilməməsini razılıqla qarşılayır.

Nəhayət, Prezidentin çıxışlarında ictimaiyyət "yolumuz haradır", "hədəfimiz nədir", "qarşıda bizi nə gözləyir" kimi suallara cavab tapır və ölkənin müqəddəratının müəyyənləşdirilməsində iştirakçılıq hüququnun tanınmasını aydın müşahidə edir.

Elə yeni deputat heyətinin qarşısındakı nitqində də Prezident bu üç mərhələni - hesabatlılıq; uğur və problemlər; yeni hədəflər - əks etdirməklə bahəm, ölkə ictimaiyyəti ilə yanaşı, dünya birliyinə də olduqca önəmli mesajlar verdi.

Ən əsası isə genişmiqyaslı islahatlar dövrünün daha bir təzahürünü elan etdi: Azərbaycanda yeni siyasi konfiqurasiya formalaşır.

Siyasi sistemin ənənəvilikdən uzaqlaşıb tam modernləşməsinin hərəkətverici qüvvəsi kimi isə Prezident məhz yeniləşən Milli Məclisi görür.

#### Birinin əskikliyi digərinin tamlığını şübhə altına alır

İlham Əliyev hər zaman vurğulayıb ki, iqtisadi tərəqqi və siyasi-demokratik inkişaf uzlaşmalı, bir-birlərini tamamlamalıdırlar. Birinin əskikliyi digərinin tamlığını şübhə altına alır.

Prezidentin bu yanaşması ölkəmizin iqtisadi inkişafla yanaşı, həm də dövlətçilik gücünü artırması və sabitliyin dönməzliyini təsbit etməsi ilə praktik fəaliyyətdə özünü tam doğruldub. Bu baxımdan, İlham Əliyevin "Tarixin ən qüdrətli Azərbaycanı" əsərini də bu postulatların harmoniyasının məntiqi nəticəsi saymaq olar.

İlham Əliyevin 16 ili ötən Prezident fəaliyyətini mərhələlər üzrə təsnifatlaşdırsaq, hər dövrü məhz hansısa islahatlar adı ilə - ilkin, dinamik, davamlı, sürətli, dərin islahatlar - qruplaşdırmaq mümkündür. Yəni bütün prezidentlik müddəti məhz islahat yönümlü, köklü dəyişiklik ovqatlıdır.

İndiki islahatlar isə, elə Prezidentin təbirincə desək, məhz genişmiqyaslıdır. Və sosial-iqtisadi sahədəki kompleks fəaliyyət artıq istənilən nəticəni verdiyindən islahat konsepsiyasının digər sütununu - siyasi sistemi də bu müsbət dəyişikliyə uyğunlaşdırmaq zərurətə çevrilib.

Ardı 5-ci səh.

### Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana rəsmi səfəri

# Azərbaycan və Türkmənistan əməkdaşlığın strateji inkişafına sadiq qaldıqlarını bir daha təsdiqlədilər

## Rəsmi qarşılanma mərasimi









**Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun martın 11-də rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkmənistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkmənistan Prezidentinə raport verdi.

Prezident İlham Əliyev və Prezident Qurbanqulu Berdiməhəmmədov fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Türkmənistan Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Türkmənistanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Qurbanqulu Berdiməhəmmədova, Türkmənistan nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Hacı Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan neft sənayesinin təşəkkülündə mühüm xidmətləri olmuş böyük xeyriyyəçi, maarifpərvər və ictimai xadim Hacı Zeynalabdin Tağıyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərində böyük xeyriyyəçi və ictimai xadim Hacı Zeynalabdin Tağıyevin abidəsi ucaldılsın.

2. Bakı Şəhər İcra Hakimiyyəti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Hacı Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2020-ci il*

◆ **Zəlzələ bölgəsindən reportaj**

## «Mehriban Əliyevanın sayəsində bayramı yeni evimizdə qarşılayırıq»

### Şamaxıda yenidən tikilən və bərpa edilən mənzillərdə Novruz böyük coşqu ilə qarşılanır



Şamaxının Muğanlı kəndində yaşayan Səfərovlar ailəsinin bu günlərdə sevincinin həddi-hüdudu yoxdur. Çünki keçən il baş vermiş zəlzələdən sonra qohum-qardaş evinə sığınan ailə üzvləri indi Novruzu özlərinin yeni evlərində ürək dolusu ilə qarşılayırlar. Ailənin başçısı Maarif Səfərov deyir ki, Heydər Əliyev Fondu tərəfindən tamamilə yenidən tikilən ev ruzilidir. Burada qarşıladıqları ilk Novruzun qədəmləri isə daha bərəkətli olacaq.

#### "Heydər Əliyev Fondu bizə yeni həyat bəxş etdi"

Ötən il fevralın əvvəlində baş vermiş zəlzələ nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında fərdi evlər qəzalı vəziyyətə düşmüş, sosial və infrastruktur obyektlərinə ziyan dəymişdi. Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, təbii fəlakətdən dərhal sonra görülən təxirəsalınmaz tədbirlər nəticəsində adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilmiş, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilmişdi. Fevralın 7-də İlham Əliyev özü zəlzələ zonasına gələrək sakinlərlə görüşmüş, təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılacağını bildirmişdi. Prezident İlham Əliyev elə buradaca əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, həmçinin sosial və infrastruktur obyektlərinə dəyən ziyanın aradan qaldırılması üçün müvafiq icra strukturlarına tapşırıq və göstərişlərini vermişdi.

Ardı 5-ci səh.

## "Qara qızıl"ın qara günü

### Azərbaycanın bu mərhələni də itkisiz keçirmək üçün yetərincə iqtisadi imkanları var

Növbəti dəfə təsdiqləndi ki, adına şəstlə "qara qızıl" deyilən neftə, daha doğrusu, onun qiymətinə arxayın olub yola çıxmaq təhlükəlidir. Yəqin elə bu səbəbdəndir ki, çoxları nefti ona sahib olan ölkələrin, xalqların xoşbəxtliyi kimi qəbul etmirlər.

Ətrafımızda baş verən qan-qadalı qarşıdurmaların coğrafiyasına baxın - hamısı "qara qızıl" əraziləridir. Azərbaycan kimi bir-iki ölkəni həmin əraziyə daxil edə bilməyiblərsə, bu, yalnız dövlət başçıları səviyyəsində həyata keçirilən praqmatik siyasətin sayəsində mümkün olub.

Amma nefti təkcə yanacaq növü kimi yox, yandırmaq vasitəsi kimi görənlər də dinc durmurlar. Onlar üçün neftin qiyməti kimi "tezalışan" təsir vasitəsi yoxdur. O üzdən istədikləri vaxt ucuzlaşdırıb, istədikləri vaxt bahalaşdırırlar.

İndi gəl, baş çıxar bu qiymət qiyamətindən, görüm necə çıxarırsan?! Ümumiyyətlə, neftin qiyməti elə bir oyundur ki, onun proqnozunu dünyanın heç tanınmış mütəxəssisləri verə bilmirlər. Qınanılası da deyillər. Çünki uzaq-yaxın keçmişdə neftin ətrafında baş verənlər göstərir ki, onun qiymətinin formalaşmasına iqtisadi səbəblərdən çox, siyasi ambisiyalar təsir edir. Üstəlik, fors-majorlar. 2-3 ay öncə kim proqnoz verə bilərdi ki, Çində "korona" adlı virus tapılacaq və o, dünyanın təkcə əhalisini deyil, iqtisadiyyatını da qatacaq qabağına.

Neftin qiyməti isə "keşikçi" kimi daim ayıq-sayıqdır, ətrafda beş verənlərə, yaxud törədilənlərə anındaca cavab verir. Bu dəfə də belə oldu. Martın 6-da OPEC+un Vyanada keçirilən uğursuz toplantısından 2 gün sonra - martın 9-da "qara qızıl" qara günə qaldı - "Brent" markalı neft 27 faiz ucuzlaşaraq bareli təxminən 31, WTI isə 30 dollara endi. Paralel olaraq beynəlxalq valyuta birjalarında dolların və avronun kursları qalxdı. Bu isə öz növbəsində Asiya indekslərinə təsir etdi. Honkonqun Hang Seng fond birjasının indeksi 4,07, Tokionun Nikkei 225 birjasının indeksi 5,77, Şanxayın fond birjasında SSEC indeksi isə 2,11 faiz düşdü. Avropa birjaları da martın 9-da fəaliyyətlərinə enmələrlə başladı. Bu enmələr Londonun FTSE 100 indeksində 8,54, Almaniyanın DAX indeksində 8,09, Fransanın CAC 40 indeksində 6,31 faiz oldu.

Ardı 5-ci səh.

# Azərbaycan və Türkmənistan əməkdaşlığın strateji

## Xalqlarımız arasında qardaşlıq münasibətlərinin çoxəsrlik tarixi var



**Martın 11-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovu salamlayan **Azərbaycan Prezidenti İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab Prezident, əziz Qurbanqulu Məlikquliyeviç.

Sizi yenidən Azərbaycan torpağında görməyə çox şadam. Bizim görüşlərimiz mütəmadi xarakter daşıyır. Biz bu görüşlərdə çox mühüm məsələlərə dair qərarlar qəbul edirik. Xalqlarımız arasında qardaşlıq münasibətlərinin çoxəsrlik tarixi var. Bu, dostluğun, qardaşlığın, qarşılıqlı dəstəyin tarixidir. Biz həmişə bir-birimizi dəstəkləmişik, bir-birimizin uğurlarına həmişə sevinmişik. Bu gün biz iki müstəqil dövlət olaraq fəal surətdə öz gələcəyimizi qururuq.

Sizi və qardaş türkmən xalqını müstəqillik dövründə qazandığınız böyük nailiyyətlər, Türkmənistanın hərtərəfli inkişafı, beynəlxalq arenada fəal mövqeyi, çoxsaylı mühüm sosial-iqtisadi məsələlərin həlli münasibətilə təbrik etmək istərdim. Biz də, dostlarınız, qardaşlarınız kimi, sizin uğurlarınıza sevinirik. Sizin bugünkü səfəriniz bizim siyasi, iqtisadi, nəqliyyat, humanitar əməkdaşlıq sahələrini əhatə edən çox geniş gündəliyə dair fəal dialoqumuzun davamıdır. Sizin görüşünüzə hazırlaşarkən mən bizim əməkdaşlığımıza dair informasiya ilə bir daha tanış oldum. Biz çox müsbət dinamika müşahidə edirik. Bu, bizi sevindirir. Çünki bu gün, dünyada iqtisadi-maliyyə sahəsində hələ boşluqların olduğu bir dövrdə bizim aramızda iqtisadi-ticari münasibətlər inkişaf edir, əmtəə dövriyyəsi artır. Biz öz regionumuzda - Xəzər, Mərkəzi Asiya və Qafqaz regionunda çox mühüm məsələləri həll edirik. Buna görə əminəm ki, ölkəmizə budəfəki rəsmi səfəriniz səmərəli, məhsuldar olacaq və yaxşı nəticələr verəcək. Bir daha xoş gəlmisiniz. Azərbaycanda vaxtınızın xoş keçməsini arzu edirəm.

**Türkmənistan Prezidenti Qurbanqulu BERDİMƏHƏMMƏDOV** dedi:

- Təşəkkür edirəm, İlham Heydər oğlu. İcazə verin, dəvətə və nümayəndə heyətimizi qəbul etdiyinizə görə Sizə minnətdarlığımı bildirim.

Biz həmişə olduğu kimi, Sizin qonaqpərvərliyinizi, səmimiyyətinizi hiss edirik. Biz Sizə minnətdarıq. Əlbəttə, biz bu rəsmi səfərə çox böyük əhəmiyyət veririk. Bu səfər bizim dövlətlərarası dialoq kontekstində keçir və beynəlxalq, siyasi, iqtisadi, mədəni-humanitar sahələrə aid məsələlərin birgə müzakirələrinin davamıdır. Düşünürəm ki, bugünkü görüşümüz, danışıqlarımız da dostluq münasibətlərimizin möhkəmlənməsinə yaxşı təkan verəcək. Türkmənistan-Azərbaycan dostluq münasibətlərinə verdiyiniz şəxsi töhfəyə görə də Sizə təşəkkür etmək istərdim.

Sizə ali dövləti fəaliyyətinizdə böyük uğurlar və ən başlıcası, Sizin şəxsinizdə bizim qardaşlarımıza, Azərbaycan xalqına rifah, firavanlıq arzu etmək istəyirəm. Bir daha dəvətə görə sağ olun.

## Ölkələrimiz daim bir-birilərinin təşəbbüslərinə dəstək göstərirlər



**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkmənistan arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığı vurğulandı, Azərbaycan və Türkmənistan prezidentlərinin qarşılıqlı səfərlərinin mütəmadi həyata keçirildiyi qeyd olundu. Türkmənistan Prezidentinin səfəri çərçivəsində 20-yə yaxın sənədin imzalanacağı, Azərbaycan Respublikası Prezidentinin 2018-ci ildə Türkmənistana səfəri zamanı 20-dən artıq ikitərəfli sənədin imzalandığı vurğulandı və bununla da ikitərəfli müqavilə-hüquq bazasının genişləndiyi bildirildi. Azərbaycan və Türkmənistan xalqlarının ortaq etnik kökə, mədəniyyətə və ənənələrə malik olduqları vurğulandı.

Azərbaycanın və Türkmənistanın beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı kimi təsisatlarda sıx əməkdaşlıq etdiyinin vurğulandığı görüşdə diqqətə çatdırıldı ki, ölkələrimiz daim bir-birilərinin təşəbbüslərinə dəstək göstərirlər.

Görüşdə iki ölkə arasında ticarət dövriyyəsinin və nəqliyyat daşımalarının artması məmnuniyyətlə qeyd olundu.

Söhbət zamanı Xəzər dənizinin Azərbaycan və Türkmənistanı birləşdirən məkan olduğu bildirildi, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın tarixi əhəmiyyəti vurğulandı.

Görüş çərçivəsində enerji, kənd təsərrüfatı, elm-təhsil, turizm, mədəniyyət, idman və digər sahələrdə əməkdaşlığa dair ətraflı fikir mübadiləsi aparıldı.

# Azərbaycan-Türkmənistan sənədləri imzalanıb









**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Birgə Bəyanatını dövlət başçıları İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov imzaladılar.

"Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi ilə Türkmənistanın "Türkmənhavayolları" Agentliyi arasında Protokol"u "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cahangir Əsgərov və Türkmənistanın "Türkmənhavayolları" Agentliyinin sədri Dovran Saburov imzaladılar.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Türkmənistanın Dövlət Televiziya, Radio Verilişləri və Kinematoqrafiya Komitəsi arasında əməkdaşlıq haqqında Saziş"i "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov və Türkmənistanın Mədəniyyət naziri Atageldi Şamıradov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov və Türkmənistanın Dövlət Miqrasiya Xidmətinin sədri Merqen Qurdov imzaladılar.

"Azərbaycan Milli Kitabxanası ilə Türkmənistan Mədəniyyət Nazirliyinin Dövlət Mədəniyyət Mərkəzinin Dövlət Kitabxanası arasında kitabxana işi sahəsində Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev və Türkmənistanın Mədəniyyət naziri Atageldi Şamıradov imzaladılar.

"Bakı Dövlət Universiteti ilə Məhtimqulu adına Türkmən Dövlət Universiteti arasında əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının Təhsil naziri Ceyhun Bayramov və Türkmənistanın Təhsil naziri Mammetmırat Geldinıyazov imzaladılar.

"Rabitə operatorları "AzərTelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Türkməntelekom" Elektrorabitə Şirkəti tərəfindən Azərbaycan-Türkmənistan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın "Türkmen Aragatnaşyk" Agentliyinin sədri Xadjımırat Xudayqulıyev imzaladılar.

"Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkmənistanın "Türkmen Aragatnaşyk" Agentliyi arasında informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın "Türkmen Aragatnaşyk" Agentliyinin sədri Xadjımırat Xudayqulıyev imzaladılar. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Türkmənistanın Kənd Təsərrüfatı və Ətraf Mühitin Mühafizəsi Nazirliyi arasında Xəzər dənizinin bioloji müxtəlifliyinin öyrənilməsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev və Türkmənistanın Kənd Təsərrüfatı və Ətraf Mühitin Qorunması naziri Maqtımqulı Bayramdurdıyev imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Türkmənistanın Kənd Təsərrüfatı və Ətraf Mühitin Mühafizəsi Nazirliyi arasında torpaq kadastrı sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistanın Kənd Təsərrüfatı və Ətraf Mühitin Qorunması naziri Maqtımqulı Bayramdurdıyev imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Türkmənistanın Ədliyyə Nazirliyi arasında daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini, Xarici İşlər naziri Raşid Meredov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikasının Türkmənistandakı səfirliyinin və Türkmənistanın Azərbaycan Respublikasındakı səfirliyinin yerləşməsi üçün qarşılıqlı olaraq torpaq sahəsinin ayrılması haqqında Saziş"i Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini, Xarici İşlər naziri Raşid Meredov imzaladılar.

"Azərbaycan Milli Elmlər Akademiyasının İdarəetmə Sistemləri İnstitutu ilə Türkmənistan Elmlər Akademiyasının Seysmologiya və Atmosfer Fizikası İnstitutu arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Türkmənistanın Təhsil naziri Mammetmırat Geldinıyazov imzaladılar.

"Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Türkmənistan Elmlər Akademiyasının Məhtimqulu adına Dillər, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutu arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Türkmənistanın Mədəniyyət naziri Atageldi Şamıradov imzaladılar.

"Azərbaycan Respublikasında İxracın və İnvestisiyaların Təşviqi Fondu və Türkmənistanın Ticarət-Sənaye Palatası arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Baş Nazirinin müavini Şahin Mustafayev və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Çarı Qılıcov imzaladılar.

"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Türkmənistanın Sənayeçilər və Sahibkarlar Birliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Baş Nazirinin müavini Şahin Mustafayev və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Çarı Qılıcov imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Türkmənistanın Maliyyə və İqtisadiyyat Nazirliyi arasında dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Baş Nazirinin müavini Şahin Mustafayev və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Çarı Qılıcov imzaladılar.

"2008-ci il 19 may tarixli Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Baş Nazirinin müavini Şahin Mustafayev və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Bayramgeldi Ovezov imzaladılar.

# inkişafına sadiq qaldıqlarını bir daha təsdiqlədilər

## Son ilyarım ərzində ölkələrimiz müqavilə-hüquq bazasının möhkəmlənməsi baxımından çox böyük yol keçib

**Martın 11-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.









### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli Qurbanqulu Məlikquliyeviç.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Hörmətli Qurbanqulu Məlikquliyeviç, Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram.

Sizin səfərinizə çox şadıq və əminik ki, bu səfər ölkələrimiz və xalqlarımız arasında dostluq, qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcək. Xalqlarımız əsrlərboyu mehriban şəraitdə yaşayır, işləyir, bir-birini dəstəkləyir, bir-birinə kömək edirlər. Ölkələrimizin müstəqil dövlətlər kimi təşəkkülünün bütün mərhələlərində biz həmişə bir-birimizi dəstəkləmişik. Bu gün həmin dəstək həm ikitərəfli, həm də çoxtərəfli formatda, beynəlxalq qurumlar çərçivəsində əməkdaşlıqda hiss olunur. Fürsətdən istifadə edib Sizi və bütün qardaş türkmən xalqını Türkmənistanın bitərəfliyinin beynəlxalq aləmdə tanınmasının 25 illiyi münasibətilə təbrik etmək istərdim. Türkmənistan bu illər ərzində böyük və şərəfli inkişaf, quruculuq yolu keçib. Bu yol türkmən xalqı qarşısında böyük perspektivlər açıb və Türkmənistana dünyada böyük hörmət qazandırıb. Türkmənistanın bitərəf ölkə kimi bütün dünya birliyi tərəfindən tanınması və Sizin yürütdüyünüz fəaliyyət xətti türkmən xalqının, habelə Sizin dostlarınızın və tərəfdaşlarınızın ümidlərinə və mənafelərinə tamamilə uyğundur. Biz qonşularınız və mehriban dostlarınız kimi Sizin uğurlarınıza həmişə sevinirik. Dəfələrlə Türkmənistanda olarkən həmişə ölkənizin çox sürətli, dinamik inkişafını görürəm. Bilirəm ki, dövlətinizin inkişafının bütün mərhələlərinə, o cümlədən şəhərsalma ilə bağlı məsələlərə Siz özünüz ciddi nəzarət edirsiniz. Keçən dəfə mən çox müasir idman qurğuları ilə də tanış olmaq imkanı əldə etdim. “Asiada”nın uğurla keçirilməsi münasibətilə Sizi təbrik etmək istərdim. Belə genişmiqyaslı idman yarışlarının keçirilməsi həm müasir infrastruktur, həm də təşkilatçıların peşəkarlığını, ustalığını tələb edir. Buna görə Sizi bu böyük beynəlxalq uğur münasibətilə bir daha səmimi qəlbdən təbrik etmək istərdim.

Aşqabadın müasirləşməsini və inkişafını Sizin gözəl ölkəyə səfər edən hər kəs görür. Bu gün qardaş Türkmənistanın gücü və müasirliyi bunda da əks olunur.

Bizim ikitərəfli münasibətlərə gəldikdə, bu gün biz qarşılıqlı fəaliyyətimizin geniş gündəliyini bir daha nəzərdən keçirdik. Əməkdaşlığımızın strateji inkişafına sadiq qaldığımızı təsdiq etdik və bu gün imzalanmış sənədlər onsuz da çox geniş olan müqavilə-hüquq bazasını tamamlayır. Mənim Türkmənistana rəsmi səfərim zamanı 20-dən çox, bu gün isə 20-yə yaxın sənəd imzalanıb. Bu, ölkələrimiz arasında imzalanmış bütün sənədlərin təxminən yarısı deməkdir. Bu, onu göstərir ki, son ilyarım ərzində biz müqavilə-hüquq bazasının möhkəmlənməsi baxımından çox böyük yol keçmişik.

İmzalanmış sənədlər arasında dövlət başçılarının Birgə Bəyanatını xüsusi qeyd etmək istərdim. Bu sənəddə bizim niyyətlərimiz, dünyada, regionda vəziyyətə verdiyimiz qiymət və gələcəyə istiqamətlənməyimiz öz əksini tapıb. Mən, həmçinin hesab edirəm ki, Birgə Bəyanatın mühüm bəndlərindən biri ölkələrimizin ərazi bütövlüyünün, sərhədlərinin və suverenliyinin toxunulmazlığının bir daha dəstəklənməsi, eləcə də münaqişələrin beynəlxalq hüququn prinsipləri və ərazi bütövlüyü, sərhədlərin və suverenliyin toxunulmazlığı prinsipləri əsasında həllidir.

Şadam ki, iqtisadi-ticari sahədə işlər yaxşı gedir, əmtəə dövriyyəsinin artımında yaxşı dinamika müşahidə olunur. Bu gün biz nəqliyyat-logistika sahəsi haqqında ətraflı söhbət etdik, müvafiq dövlət strukturlarına bu istiqamətdə işin intensivləşdirilməsinə, ölkələrimizin tranzit-nəqliyyat potensialının möhkəmləndirilməsinə dair səylərin əlaqələndirilməsi barədə tapşırıqlar verdik. Həm Türkmənistanda, həm də Azərbaycanda nəqliyyat infrastrukturuna çox böyük diqqət yetirildiyini nəzərə alaraq, biz bu infrastrukturun modernləşdirilməsi yolunda praktiki olaraq paralel addımlayırıq. Bu gün bizim əsas limanlarımız əlaqələndirilmiş, uzlaşdırılmış şəkildə işləyir və ərazilərimizdən keçən yükləri artırmağa imkan verir. Biz digər ölkələrə də öz tranzit potensialımızı təqdim edirik. Hesab edirəm ki, bu gün biz həmin potensialın möhkəmləndirilməsi barədə mühüm qərar qəbul etmişik. İnfrastruktur imkanlarının təmin edilməsi və yük axınının artırılmasına şərait yaradılması üçün əlavə tədbirlər görüləcək. Təbii ki, qonşularımızla sıx qarşılıqlı əlaqədə və xoş münasibətlərdə olduğumuza görə həmin dövlətlərdən daha çox yükgöndərənləri cəlb edəcəyik və mahiyyət etibarilə uzunluğu min kilometrlərlə ölçülən yeni nəqliyyat dəhlizi yaradacağıq. Beləliklə, ölkələrimizin daha da inkişaf etməsi üçün əlverişli şərait yaradacaq, regional əməkdaşlığı möhkəmləndirəcəyik.

Əlbəttə, biz enerji sektoru ilə bağlı məsələlər barədə də danışdıq. Burada da yaxşı nəticələr var, çoxdan əməkdaşlıq edirik. Biz bu istiqamətdə gələcək addımlar barədə də danışdıq. Xalqlarımızın etnik yaxınlığı, dillərimizin yaxınlığı, ortaq mədəniyyətimiz nəzərə alınmaqla, ölkələrimiz üçün humanitar əməkdaşlığın vacibliyini qeyd etdik.

Beləliklə, bugünkü görüşümüzün gündəliyi yetərincə məhsuldar olub. Ümumiyyətlə, biz çox fəal dialoq aparırıq. Keçən il prezidentlər həm Bakıda, həm də Aşqabadda görüşüblər. İnişil, qeyd etdiyim kimi, mənim rəsmi səfərim çox uğurlu olub. Mən qonaqpərvərliyə görə qardaş türkmən xalqına və Türkmənistan Prezidentinə bir daha təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, Türkmənistan Prezidentinin budəfəki rəsmi səfəri əlaqələrimizin möhkəmlənməsi işində daha bir mühüm addım olacaq.

Türkmənistandakı qardaşlarımıza gələcəkdə də inkişaf, uğur, sülh və firavanlıq arzu etmək istəyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

Sonra Türkmənistan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident Qurbanqulu Berdiməhəmmədovun bəyanatı

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli media nümayəndələri, xanımlar və cənablar.

Mən, ilk növbədə, Azərbaycan Respublikasının Prezidentinə bizim mehriban qonşumuz olan ölkəyə rəsmi səfərə dəvət etdiyinə, Sizin qonaqpərvərliyinizə və səmimiyyətinizə görə nümayəndə heyətimiz adından dərin minnətdarlığımızı bildirmək istərdim. Həqiqətən görüşlər və danışıqlar üçün çox rahat şərait yaradılıb. Adətimiz üzrə biz dövlətlərarası dialoqun davam etdirilməsi kontekstində çox məsələləri nəzərdən keçirdik, yəni, bizim indiki vəziyyətimizi və perspektivləri müəyyən etdik. Biz müasir mərhələdə siyasi, iqtisadi, mədəni-humanitar sahələrə aid məsələləri də nəzərdən keçirdik. Siyasət məsələlərinə gəldikdə, vurğulamaq istərdim ki, Azərbaycan regionda Türkmənistan üçün strateji tərəfdaşdır. Bunu bir daha vurğulayıram. Yəni, bizim mövqelərimiz çox cəhətdən oxşardır. Biz bütün dünyada və regionda, - mən Mərkəzi Asiya, Cənubi Qafqaz və Xəzər regionunu nəzərdə tuturam, - sabitliyin və təhlükəsizliyin tərəfdarıyıq. Qeyd edildiyi kimi, biz bütün bu tədbirləri məhz beynəlxalq strukturların - Birləşmiş Millətlər Təşkilatının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, İslam Əməkdaşlıq Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının himayəsi altında, Müstəqil Dövlətlər Birliyinin və digər beynəlxalq qurumların xətti ilə həyata keçiririk. Buna görə də Azərbaycana təşəkkür edirik ki, o, beynəlxalq arenada Türkmənistanın bütün mövqelərini dəstəkləyir.

Bu gün biz iqtisadiyyatımıza aid məsələləri də nəzərdən keçirdik. Energetika sahəsi üzərində prioritet məsələ kimi dayandıq. Həm Türkmənistan, həm də Azərbaycan karbohidrogen ehtiyatları ilə zəngin, özünü təmin edən dövlətlərdir. Energetika məsələlərinə gəldikdə, biz bu ehtiyatların şaxələndirilməsinin tərəfdarıyıq. Biz belə bir ideya irəli sürürük ki, bu şaxələndirmə istehsalçı, daşıyıcı və son istehlakçı arasında paritet əsasda qurulmalıdır. Buna görə də biz bu gün razılaşdıq ki, bundan sonra da qaz, neft-kimya və başqa sahələr üzrə birgə işləyəcəyik. Həmçinin tekstil sənayesi, aqrosənaye kompleksi, habelə nəqliyyat-tranzit dəhlizinin inkişafı məsələlərinə diqqəti cəlb etdik. Bu mövzuya keçməzdən əvvəl xatırlatmaq istərdim ki, bizi həm də Xəzər dənizi birləşdirir. Xəzəryanı ölkələrin hamısı bildirir ki, bu, sülh və mehriban qonşuluq dənizidir. Buna görə də, bildiyiniz kimi, Xəzər dənizinin statusu barədə beynəlxalq Konvensiya qəbul edilib və orada müəyyən olunub ki, gələcəkdə bütün mexanizmlər bizim xarici siyasət idarələri tərəfindən işlənib hazırlanmalıdır. Bunu əsas götürərək biz bütün Xəzəryanı ölkələrə təşəkkür edirik. Birinci Xəzər İqtisadi Forumunun keçirilməsinin Türkmənistana etibar edilməsinə görə də təşəkkür edirik. Həmin forumda Azərbaycan çox fəal iştirak edib.

Tranzit-nəqliyyat dəhlizinin inkişafına gəldikdə, İlham Heydər oğlunun xatırlatdığı kimi, burada düzgün logistika mühüm rol oynayır. Biz “Lyapis Lazuli” adlanan layihə barədə saziş qəbul etdik. Bu dəhliz Əfqanıstandan başlanır, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçərək Avropaya çıxır. Yəni, burada biz Asiya ilə Avropanın birləşdirilməsində mühüm rol oynayırıq. Türkmənistan ilə Azərbaycan arasında əmtəə dövriyyəsi, prinsip etibarilə yüksələn xətt üzrə artır. Bu göstərici 40 faizdən çox artıb və burada iqtisadi əməkdaşlıq üzrə bizim hökumətlərarası komissiya əlaqələndirici rol oynayır.

Bu gün biz özəl sektora aid məsələlərə də toxunduq. Yəni, kiçik və orta sahibkarlıqdan başlayaraq biznes elitasına aid məsələləri müzakirə etdik və bu nəticəyə gəldik ki, biz həmin sahibkarlar arasında işgüzar şura yaradacağıq. Bakıda Türkmənistan ticarət evinin və Aşqabadda Azərbaycan ticarət evinin təsis edilməsi barədə də razılaşdıq. Bu, əlbəttə, əmtəə dövriyyəsinin artırılması üçün bizə daha yaxşı imkanlar yaradacaq. Türkmənistanın və Azərbaycanın hələ istifadə edilməmiş potensialı var.

Əlbəttə, biz mədəni-humanitar sahəyə də toxunduq. Bu sahədə elm, təhsil, idman və turizm məsələləri prioritetdir. Lakin ən başlıcası, biz vurğuladıq ki, artıq qeyd edildiyi kimi, bizim köklərimiz ortaq, dilimiz birdir, bizim milli xüsusiyyətlərimiz var. Buna görə də biz milli sərvətimiz, yəni Türkmənistan və Azərbaycan xalçaları kimi incilərimizə böyük əhəmiyyət veririk. Buna görə biz Türkmənistan və Azərbaycan xalçalarına həsr edilmiş sərgilər, konfranslar keçirilməsi barədə razılığa gəldik. Gördüyünüz kimi, prinsip etibarilə bu gün bizim görüşlərimiz və danışıqlarımız həqiqətən çox yaxşı, yəni konstruktiv olub, qarşılıqlı hörmət və qarşılıqlı etimad fonunda keçib.

Mən həm də fürsətdən istifadə edib, İlham Heydər oğlunu ən demokratik şəkildə keçirilmiş parlament seçkiləri münasibətilə təbrik edirəm. Burada əsası dünyamiqyaslı böyük siyasi xadim Heydər Əliyev tərəfindən qoyulmuş təməl mühüm rol oynayır. Bu münasibətlə Sizi təbrik edirəm.

İlham Heydər oğlu, Sizə ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzulayır, qardaş Azərbaycan xalqına isə firavanlıq və xoşbəxtlik diləyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

## Ali qonağın şərəfinə



AZƏRTAC xəbər verir ki, martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun şərəfinə rəsmi ziyafət verilib.

## Baş Nazir Əli Əsədov Prezident Qurbanqulu Berdiməhəmmədov ilə görüşüb



Martın 11-də Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşüb. AZƏRTAC Nazirlər Kabinetinin saytına istinadla xəbər verir ki, hər iki tərəfdən hökumət üzvlərinin də iştirak etdikləri işçi nahar zamanı iki ölkə arasında iqtisadi əlaqələrin indiki vəziyyəti və perspektivləri barədə danışılıb.

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Hüseynov Tofiq Vaqif oğlu - general-mayor
Muradov İnqilab Heydər oğlu - general-mayor

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Babayev Elxan Eyyub oğlu - polkovnik-leytenant
Həsənov Ayaz Şərif oğlu - polkovnik-leytenant
Xanbabayev Vahid Qəzənfər oğlu - polkovnik-leytenant
Kazımov Elbəy Cəfər oğlu - polkovnik-leytenant
Kərimov Oqtay Nəbi oğlu - polkovnik-leytenant
Kərimov Təbriz Vidadi oğlu - polkovnik-leytenant
Məmmədov Kamil İsmət oğlu - polkovnik-leytenant
Murğuzov İlqar Bəhram oğlu - polkovnik-leytenant
Mustafayev Urfan Lətif oğlu - tibb xidməti polkovnik-leytenantı
Zeynalov Namiq Qafar oğlu - polkovnik-leytenant
Əliyev Hüseyn Ağasəf oğlu - mayor
İsmayılov Ceyhun Təbriz oğlu - mayor
Məmmədov Kamran Kamil oğlu - mayor
Quliyev Qəşəm Qalib oğlu - kapitan
Yusifov Məmməd Ələkbər oğlu - kapitan
Məmmədov Cavanşir Əlsəddar oğlu - baş gizir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2020-ci il*

## Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana rəsmi səfəri

## Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət



**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov martın 11-də Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, ali qonaq görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini anıb, məzarı üzərinə tər çiçəklər düzüb.

## Şəhidlərin xatirəsinə ehtiram

**Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov martın 11-də Şəhidlər xiyabanını ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Türkmənistanın və Azərbaycanın Dövlət himnləri səslənib.

Azərbaycan paytaxtının mənzərəsini seyr edən Türkmənistan Prezidentinə Şəhidlər xiyabanının tarixi və paytaxtda görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

## Xalça Muzeyi ilə tanışlıq





**Martın 11-də ölkəmizdə rəsmi səfərdə olan Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, burada ali qonağa xalqımızın qədim xalçaçılıq sənəti, onun tarixi, adət-ənənəsi haqqında məlumat verildi. Bildirildi ki, Azərbaycan xalçaçılıq sənətinin əsas bədii istiqamətlərini əks etdirən muzeyin kolleksiyası nadir gözəlliyin, istifadə olunan materialların, toxuma texnikasının, xalçalara məxsus zərif və dərin bədii xüsusiyyətlərin harmoniyasını nümayiş etdirir.

Diqqətə çatdırıldı ki, "qızıl fond"unu xovlu xalçalar təşkil edən muzeyin kolleksiyasında xovsuz xalçaların da nadir nümunələri saxlanılır. Burada Azərbaycanın 7 əsas xalçaçılıq məktəbinin - Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz məktəblərinin xalça nümunələri təqdim olunur. Xalçalar xalqın həyat və məişətini əks etdirən, insan, heyvan, quş, bitki ornamentləri ilə zəngin olan sənət əsərləridir.

Qeyd edildi ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində milli xalçaçılıq sənəti 2010-cu il noyabrın 16-da UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib və həmin gün ölkəmizdə Azərbaycan Xalçası Günü kimi qeyd olunur.

Daha sonra Türkmənistan Prezidenti muzeydə yerləşən "Zərgərlik fondu" ilə tanış oldu. Burada Azərbaycanın müxtəlif tarixi dövrlərinə aid qızıl və gümüş eksponatlar yer alır.

Maddi-mədəni irsimizlə yanaşı, muzey binasının orijinal görünüşü, qeyri-adi ekspozisiya zallarının quruluşu ali qonaqda xoş təəssürat yaratdı.

Prezident Qurbanqulu Berdiməhəmmədov Xalça Muzeyinə türkmən xalçası hədiyyə etdi.

Türkmənistan Prezidentinə Azərbaycan xalçası hədiyyə olundu.

## Səfər başa çatdı

**Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycan Respublikasına rəsmi səfəri martın 11-də başa çatıb.**



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Türkmənistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Qurbanqulu Berdiməhəmmədovu Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov, Xarici İşlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola saldılar.

## Nazirlər Kabinetində qlobal enerji bazarında vəziyyət və onun ölkə iqtisadiyyatına təsirinə dair müşavirə keçirilib



**Martın 11-də Azərbaycan Respublikasının Nazirlər Kabinetində Baş Nazir Əli Əsədovun sədrliyi ilə qlobal enerji bazarında vəziyyət və onun ölkə iqtisadiyyatına təsirinə dair müşavirə keçirilib.**

AZƏRTAC xəbər verir ki, müşavirədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Maliyyə naziri Samir Şərifov, Mərkəzi Bankın sədri Elman Rüstəmov, Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədov və Baş Nazirin köməkçisi Fəxri İsmayılov iştirak ediblər.

Baş Nazir Əli Əsədov son günlər dünya bazarında neftin qiymətinin kəskin ucuzlaşması ilə bağlı olaraq maliyyə-bank sektorunda və əhali arasında narahatlığın artdığını bildirib. Hökumətin dünya iqtisadiyyatında gedən prosesləri daim diqqət mərkəzində saxladığını və qabaqlayıcı rejimdə tədbirlər həyata keçirdiyini vurğulayan Baş Nazir deyib: "Prezident İlham Əliyev martın 10-da Milli Məclisdə Azərbaycan iqtisadiyyatının inkişafı barədə ətraflı çıxış etdi. Nazirlər Kabineti tərəfindən də ölkədə makroiqtisadi və maliyyə sabitliyinin qorunması barədə həmin gün biznes dairələrinə və əhaliyə yönəlmiş məlumat verildi. Təbii ki, ilin əvvəlindən dünyada koronavirus infeksiyasının yayılmasının qlobal iqtisadiyyata, eləcə də neft bazarlarına mənfi təsirləri vardır. Lakin bu gün ölkəmizin iqtisadiyyatı görülmüş tədbirlər nəticəsində 2014-cü ildən başlanan qlobal maliyyə-iqtisadi böhranı dövründən daha dayanıqlıdır. Qeyd etmək istəyirəm ki, dünyada baş verən mənfi iqtisadi meyillərə baxmayaraq, iqtisadiyyatımız inkişaf edir, ölkənin maliyyə imkanları genişlənir. Dövlət başçısının vurğuladığı kimi, ölkə iqtisadiyyatının kifayət qədər yüksək maliyyə immuniteti və təhlükəsizlik "yastığı" mövcuddur. Azərbaycanın müsbət beynəlxalq investisiya mövqeyi onun beynəlxalq kreditor rolunda çıxış etdiyini göstərir".

Əli Əsədov qeyd edib ki, cari ildə də ölkədə müsbət inkişaf dinamikası davam edir. Belə ki, 2020-ci ilin yanvar-fevral aylarında ümumi daxili məhsul 2,8 faiz, qeyri-neft ümumi daxili məhsulu isə 6,7 faiz artıb. İnflyasiya 2,8 faiz təşkil edir.

Bu gün dünya enerji bazarında neftin qiyməti 2020-ci ilin dövlət büdcəsində nəzərdə tutulan 55 dollardan təxminən 18 dollar aşağıdır.

Mərkəzi Bankın sədri Elman Rüstəmov neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar son günlər valyuta bazarında hiss olunan gərginlik və bu sahədə mövcud vəziyyətə dair məlumat verib. Elman Rüstəmov Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini bildirərək, bu gün ölkəmizin belə çağırışlara tam hazır olduğunu vurğulayıb. "Bizim böhran idarəetmə ilə bağlı kifayət qədər təcrübəmiz var. Digər tərəfdən, neftin qiymətinin yuxarı olduğu dövrlərdə strateji valyuta ehtiyatlarımız artırılıb. Bu gün təxminən 10 milyard dollar artım var. Bu, bizə belə situasiyalara təsir etmək üçün vasitələrə və alətlərə malik olmaq imkanı verir. Bu hadisələrdə şok xaricdən gəlir. Yəni, Azərbaycanda gedən iqtisadi, sosial və siyasi proseslərdən qaynaqlanmır. Digər tərəfdən, dünya bazarında neftin qiymətinin qısa müddətdə kəskin aşağı düşməsi ölkəmizin nə ticarət, nə də tədiyə balanslarına əhəmiyyətli təsir etməyib", - deyə Elman Rüstəmov vurğulayıb.

Baş Nazirin "Xarici valyuta satışı ilə bağlı hər hansı məhdudiyyətlər tətbiq olunurmu" və "Mənfi təsirləri neytrallaşdırmaq üçün hansı imkanlar var" suallarına cavab verən Elman Rüstəmov qeyd edib ki, bu cür hallarda valyuta hərraclarında, bazarda valyutaya ehtiyac artır. Bu tələbatı ödəmək üçün Mərkəzi Bank martın 10-da hərrac keçirib. Bu gün isə növbədənkənar hərrac keçirildi. Hər iki hərracda bazarın bütün tələbatını tam şəkildə ödədik. Həmçinin ölkəyə əvvəlcədən kifayət qədər nağd valyuta gətirilib və bankların nağd və qeyri-nağd valyutaya olan bütün tələbatları tam ödənilib. Eyni zamanda, tətbiq olunan bank rejimində də heç bir dəyişiklik edilməyib. Bankdaxili konvertasiya və ya bankların imkanları daxilində fiziki və hüquqi şəxslərin depozitlərinin konvertasiyası üçün heç bir məhdudiyyət yoxdur. Bunlara baxmayaraq, biz banklarda növbələr müşahidə edirik. Qərara alınıb ki, bankların gündəlik iş rejimi bir saat uzadılsın. Əlavə olaraq, Mərkəzi Bank və maliyyə-bank sektoru birlikdə həm şənbə, həm də bazar günləri adi iş rejimində fəaliyyət göstərəcəklər. Ona görə də vətəndaşlarımız bu imkanlardan istifadə edərək istirahət günlərində də valyuta-dəyişmə məntəqələrində öz vəsaitlərini dəyişdirə bilərlər. Digər tərəfdən, hökumətin tapşırığı ilə biz bayram günlərində də iş rejimimizi planlaşdıracağıq və əgər lazım gələrsə, Mərkəzi Bank və bank sektoru fəaliyyət göstərəcəkdir.

Azərbaycanın mövcud iqtisadi vəziyyəti və neftin qiymətinin azalmasının qısa və ortamüddətli dövrdə ölkə iqtisadiyyatına təsir imkanları barədə məlumat verən İqtisadiyyat naziri Mikayıl Cabbarov deyib: "Bu gün ölkə iqtisadiyyatına əsasən iki təsiretmə imkanına malik amil var: koronavirus epidemiyası və OPEC+ sövdələşməsinin baş tutmaması. Qeyd etmək istəyirəm ki, Azərbaycan iqtisadiyyatı 2020-ci ilin əvvəlində də öz dayanıqlılığını saxlayır. Cari ilin ötən iki ayında ümumi daxili məhsulun artım tempi 2,8 faiz olub. Həmçinin qeyri-neft sektorunda ümumi daxili məhsulun artım tempi 6,7 faiz olub. Qeyri-neft sənayesində istehsalın artımı 21,7 faizə yüksəlib, eyni zamanda, qeyri-neft sektorunda investisiya qoyuluşlarının artım tempi 21 faizə çatıb. Təbii ki, koronavirus epidemiyasının yayılması bəzi fəaliyyət sahələrinə mənfi təsir edib. Məsələn, turizm, hava nəqliyyatı kimi sahələri göstərmək olar. Lakin digər sahələrdə biz müəyyən yüksək artım müşahidə edirik. Həmçinin əhalinin pul gəlirlərinin nominal artım tempi 5,1 faizdən 8,9 faizə yüksəlib".

Nazir bildirib ki, cari ilin ötən iki ayında vergi daxilolmaları üzrə proqnoz 114,2 faiz, həmçinin qeyri-neft sektorunda 115,9 faiz icra olunub. Büdcəyə proqnozdan əlavə 180 milyon manatdan çox vəsait daxil olub. Vergi daxilolmaları ötən ilin iki ayı ilə müqayisədə 24,5 faiz, həmçinin qeyri-neft sektorunda 24,8 faiz artıb.

Ölkə iqtisadiyyatının maliyyə dayanıqlılığına toxunan Mikayıl Cabbarov deyib: "İqtisadiyyatımızın istənilən xarici şoklara qarşı güclü maliyyə immuniteti və təhlükəsizlik "yastığı" mövcuddur. Strateji valyuta ehtiyatlarının həcmi ümumi daxili məhsulun 100 faizini ötür, xarici dövlət borcunun həcmini altı dəfə üstələyir. Ehtiyatların həcmi üçillik mal və xidmətlərin fasiləsiz maliyyələşdirilməsi üçün yetərlidir. Yəni, strateji valyuta ehtiyatları dövriyyədə olan bütün manat kütləsinin həcmindən 5 dəfə, nağd manat kütləsinin həcmindən isə 9 dəfə çoxdur. Bu da valyuta bazarının tarazlığının təmin olunması və makroiqtisadi sabitliyin qorunmasının fundamental şərtidir".

Nazir, həmçinin qeyd edib ki, iqtisadi artım dinamikasının qorunması məqsədilə kiçik və orta sahibkarlığın stimullaşdırılması üçün təkliflər hazırlanıb hökumətə təqdim olunacaq. Eyni zamanda, valyuta bazarında tarazlığın və manatın sabitliyinin qorunması istiqamətində nazirliyin müvafiq strukturları Mərkəzi Bankla birlikdə çevik tədbirlər həyata keçirir. Bundan əlavə, qanunvericiliyə uyğun olaraq, nağd pul sferasına nəzarət daha gücləndiriləcək, istehlak bazarında qiymətlərin əsassız qaldırılması və süni şəkildə qıtlığın yaradılması cəhdlərinin qarşısı qətiyyətlə alınacaq. Eyni zamanda, haqsız rəqabətə qarşı mübarizə tədbirləri və vergi intizamı gücləndiriləcək.

Neftin qiymətinin aşağı düşməsi 2020-ci ilin dövlət büdcəsinin gəlirlərinə və xərclərinə təsir imkanları barədə Maliyyə naziri Samir Şərifov məlumat verərək qeyd edib ki, dünya bazarında neftin qiymətinin aşağı düşməsi, şübhəsiz, Azərbaycanın da gəlirlərinin azalmasına gətirib çıxarır. "Cari il üçün təsdiq olunmuş dövlət büdcəsinə nəzər salsaq görərik ki, büdcə gəlirlərinin əsas mənbəyi vergi daxilolmaları, Dövlət Neft Şirkətinin və neft hasilatının pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən şirkətlərin vergi ödənişləridir. Dövlət Neft Şirkətinin gəlirlərinin formalaşmasında böyük hissəni daxili bazarda yaranan gəlirlər təşkil edir. Buna görə də neftin qiymətinin aşağı düşməsi buna təsir etmir. Neft hasilatının pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən şirkətlərin vergi ödənişlərinə gəlincə isə, əlbəttə ki, neftin qiyməti endiyinə görə, müvafiq olaraq onların vergi ödənişləri azala bilər. Lakin burada da vəziyyət kifayət qədər normaldır. Çünki bu gəlirlərin azalması dövlət büdcəsində proqnozlaşdırılan gəlirlərin 1-1,3 faizi səviyyəsindədir", - deyə Samir Şərifov vurğulayıb.

Nazir qeyd edib ki, cari ilin ilk iki ayında vergi orqanları tərəfindən proqnoz göstəricilər artıqlaması ilə icra olunub. Eyni zamanda, gömrük orqanları tərəfindən də daxilolmalar artıqlaması ilə icra edilib. Artıq icra olunan gəlirlər 4 milyon manat təşkil edir. Digər tərəfdən, büdcənin formalaşmasında Dövlət Neft Fondundan olan transfert mühüm rol oynayır. Bu transfertin də dövlət büdcəsinə daxil olması təmin edilir. Yəni, hazırkı dövlət büdcəsi qısamüddətli xarici şoklardan sığortalanıb və hər hansı ciddi təsirlər müşahidə edilməyəcək. Onu da qeyd etmək lazımdır ki, Prezidentin tapşırığına uyğun olaraq, xərclərin optimallaşdırılması ilə bağlı da işlər davam etdirilir. Həmçinin koronavirus epidemiyası ilə bağlı dünyada və ölkəmizdə müəyyən beynəlxalq tədbirlərin, bəzi ezamiyyələrin təxirə salınması gözlənilir. Bu qənaətlərdən də səmərəli istifadə olunacaq. Dövlət büdcəsinin icrası ilə bağlı kifayət qədər resurslar var.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov 2014-2016-cı illərdə neftin qiymətində müşahidə olunan volatilliyə nəzər salaraq deyib ki, o zaman neftin qiymətinin 140 dollardan 30 dollara qədər düşməsi qeydə alınmışdı. "Bu, kəskin volatillik idi. Buna nisbətdə bu gün müşahidə edilən dəyişiklik o qədər də böyük deyil. Təbii ki, bu illər ərzində Azərbaycan iqtisadiyyatının da neftin qiymətindən asılılığı kəskin şəkildə azalıb. Bu, əlbəttə ki, dövlət başçısı İlham Əliyevin düşünülmüş siyasətinin nəticəsində mümkün olub. Bu gün Azərbaycan iqtisadiyyatı kifayət qədər dayanıqlıdır. Valyuta məzənnəsi ilə bağlı təzyiq də daha çox psixoloji amillərə əsaslanır. Azərbaycan bu gün heç bir dəyişiklik etməsə belə, ehtiyatlarımız bizə növbəti 20 ildə də dayanıqlı fəaliyyət göstərməyə imkan verəcək. Hesab edirəm ki, hər hansı narahatlığa əsas yoxdur", - deyə Prezidentin köməkçisi qeyd edib.

Müşavirədə bir sıra tapşırıqlar da verilib: İlk növbədə, Mərkəzi Bank və Dövlət Neft Fondu valyuta bazarında sabitliyin qorunması məqsədilə zəruri tədbirlər görülməsi istiqamətində işləri davam etdirsin; Artıq əmanətlərin tam sığortalanması müddətinin uzadılması ilə bağlı qərar layihəsi Milli Məclisdədir; Mərkəzi Bank Prezidentin tapşırıqlarına müvafiq olaraq bank sektorunun sağlamlaşdırılması istiqamətində görülən tədbirləri davam etdirsin və atılacaq addımları sürətləndirsin; Vergi xidməti orqanları səlahiyyətləri çərçivəsində valyuta bazarında yaranmış vəziyyətdən sui-istifadə hallarının qarşısının alınması istiqamətində müvafiq tədbirlər görsün; Maliyyə Nazirliyi 2020-ci ilin dövlət büdcəsinin maliyyə dayanıqlılığının daha da gücləndirilməsi və büdcə öhdəliklərinin yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirsin.

Müşavirəyə yekun vuran Baş Nazir Əli Əsədov yaranmış qlobal iqtisadi vəziyyətin mürəkkəb olduğunu bildirərək deyib: "Lakin biz vəziyyətə gündəlik əsasda nəzarət edirik və iqtisadiyyatımızda mövcud situasiya idarəolunandır. Hökumət qlobal iqtisadiyyatda baş verən son hadisələrin ölkə iqtisadiyyatına mənfi təsirlərinin aradan qaldırılması üçün müvafiq təsir alətlərinə malikdir və zəruri olduğu halda bu alətlərdən çevik istifadə ediləcək. Neft bazarında və qlobal iqtisadiyyatda baş verən hadisələrə qarşı ölkənin kifayət həcmdə maliyyə resursları vardır. Artıq qeyd olunduğu kimi, strateji valyuta ehtiyatlarımız ümumi daxili məhsulun 100 faizini ötür və xarici dövlət borcunu 6 dəfə üstələyir. Bu baxımdan, yaranmış vəziyyətdə biznes ictimaiyyətini və əhalini təmkinli davranış nümayiş etdirməyə çağırıram. Eyni zamanda, bildirmək istəyirəm ki, valyuta bazarına nəzarət gücləndiriləcək, qeyri-qanuni hərəkətlər və yaranmış vəziyyətdən sui-istifadə hallarının qarşısı qətiyyətlə alınacaqdır".

# Genişmiqyaslı islahatlar dövrünün yeni siyasi konfiqurasiyası

## İlham Əliyevin tezisləri, yeni siyasi sistemin konturları və parlamentdə başlanan dəyişikliklər…

*Əvvəli 1-ci səh.*

İlham Əliyevin bu prosesdə Milli Məclisin lokomotiv-yönləndirici funksiya daşıdığını elan etməsi parlament seçkilərinin niyə növbədənkənar keçirilməsi barədə suallara bir daha aydınlıq gətirir. Həmçinin parlamentin yeni heyətinin, yeni sədarətin tərkibi siyasi modernləşmənin artıq başladığına dəlalət edir.

Prezidentin irəli sürdüyü tezislərin təhlili və alt qatlarının öyrənilməsi siyasi modernləşmənin əsas məramını da, elə hədəfini də müəyyənləşdirir.

### Siyasi dialoq təklifinin müəllifi Prezidentdir

Beləliklə, İlham Əliyevin yeni siyasi konfiqurasiyanın formalaşmasından və bu prosesdə parlamentin iştirakından gözləntiləri nədir?

Əvvəla, yeni parlamentin çoxpartiyalılığı onu ölkədəki siyasi diskussiyaların, debatların, hətta zərərsiz siyasi toqquşmaların təbii platformasına çevirir. Yəni məmləkətdəki bütün siyasi proseslər - istər loyal, istərsə də sərt formada, fərqi yoxdur - məhz parlament zalında və kluarlarında cərəyan etməlidir.

Digər tərəfdən, parlament xalqın birbaşa seçdiyi hakimiyyətdir və siyasi sistemin əsas nüvəsinə çevrilməlidir. Bu sistemdən kənar hansısa siyasi hərəkat və siyasi hərəkət məhdudlaşdırıla bilməsə də, onların xalqın iradəsini əks etdirmədiyi faktdır. Xalq siyasi sistemi parlament hüdudlarında müəyyənləşdirib və burada təmsilçiliyi olmayan hansısa qrup sistemdə iştirakçılığını yalnız konstruktivlik və sağlam yönümlü yanaşma ilə təmin edə bilər.

Həmçinin iqtidar-müxalifət münasibətlərinin sivil ahəngi parlament müstəvisində gerçəkləşməlidir. Son həftələrdə hakimiyyətin təşəbbüsü ilə siyasi partiyalarla keçirilən görüşlər, Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyevin 30-dan artıq təşkilatın rəhbərini qəbul etməsi məhz Prezidentin yeni siyasi konfiqurasiya modelinin ilkin təzahürləridir.

Prezident fevral ayından etibarən siyasi opponentlərinə şəxsən dialoq təklif edir və bunu son çıxışında xüsusən vurğuladı. İndidək olan görüşlər barədə müntəzəm məlumat aldığını deyən və onları müsbət xarakterizə edən dövlət başçısı siyasi dialoqun ən təkmil və etibarlı mərkəzi kimi də məhz parlamenti görür.



### Parlamentin idarəçilik tərkibi yeni siyasi konfiqurasiyanın ilk təzahürüdür

Prosesi sürətləndirmək üçün parlamentin idarəçilik institutunda köklü dəyişikliklərə gedildi. İlham Əliyev parlamentdə mütləq çoxluğa sahib olan Yeni Azərbaycan Partiyasının lideri kimi bu məsələdə də mühüm missiya daşıyır.

121 deputatın təmsil olunduğu Milli Məclisdə 70 təmsilçiyə malik olan YAP-ın deputat qrupu sədrinin tövsiyəsi ilə parlament idarəçiliyində bitərəflərə və müxalifət partiyalarına böyük güzəşt etdi:

- *parlamentin ali rəhbərliyinin (sədr və üç müavin) tən yarısı opponentlərə verildi. Həm də ilk dəfə olaraq müxalifət təmçilçisi vitse-spiker vəzifəsinə seçilərək ümumilikdə ölkənin rəsmi iyerarxiyasında iştirak hüququ qazandı;*
- *parlamentin komitə sədri postunun üçdəbiri (5 vəzifə) bitərəf və müxalifət namizədlərinə ayrıldı;*
- *parlamentin komitə sədrinin müavini olan 15 nəfərdən 10-u, yəni üçdəikisi bitərəf və müxalifət təmsilçilərindəndir.*

Beləliklə, parlament idarəçiliyini həyata keçirəcək 34 nəfərdən (sədarət, komitə sədri və müavinləri) 17 nəfəri, yəni tam yarısı məhz bitərəf və müxalifət təmsilçilərinə ayrıldı.

Parlament idarəçiliyində bitərəflərin və müxalifətin geniş iştirakı bu qüvvələrin ölkədəki proseslərdə iştirakçılıq imkanını genişləndirir, onlara motivasiya verir və demokratiyanın əsas göstəricisi olan siyasi palitranın rəngarəngliyini təsbit edir.

### Müxalifətdən gözləntilər nədir?

Siyasi sistemin iştirakçısı və yeni siyasi konfiqurasiyanın elementləri olan partiyalar, hərəkatlar bu prosesdə məsuliyyətlərini və xalq qarşısında daşıdıqları siyasi öhdəlikləri unutmamalıdırlar. Yeni Azərbaycan Partiyası bu yönümdə ən mükəmməl nümunəsini göstərdi.

Ölkənin alternativsiz siyasi gücü olan hakim partiya opponentlərini siyasi proseslərdə fəal iştiraka təşviq etməklə yanaşı, onlara rəsmi təmsilçilik imkanları da yaradır. Bunun müqabilində isə nə bir şərti, nə də təmənnası var.

Sadəcə olaraq bir niyyəti var:

- *opponentlər ölkənin siyasi həyatında təşəbbüskarlığını, iştirakçılığını, proseslərə reaksiyasını yüksəltsin;*
- *siyasi sistemin möhkəmlənməsinə və modernləşməsinə ardıcıl töhfələr versin;*
- *Azərbaycanın maraqlarına yönələn təhdidlərə qarşı daha kəskin, ifşaedici və əsasən də səmimi ruhda münasibət bildirsin;*
- *sağlam polemikalar açsın, iqtidarın fəaliyyətindəki çatışmazlıqları desin, konstruktiv tənqid nümayiş etdirsin;*
- *tərəfdarlarının siyasi şüur səviyyəsini davamlı təkmilləşdirsin;*
- *fəaliyyətini məhdud deklorativ səviyyədən - sədr və iki-üç müavinin müsahibəsi, bəyanatı çərçivəsindən çıxararaq yenidən təşkilatlansın, yerlərdə fəal iş aparsın;*
- *yaradılan şəraitdən maksimum bəhrələnərək, sıralarını artırsın...*

Yəni İlham Əliyevin sədri olduğu YAP dövlət mənafeyini əsas götürərək siyasi rəqabəti unudur və müxalifət partiyalarına real fəaliyyətə keçməyi, daha da fəallaşmağı, siyasi güc mərkəzlərinə çevrilməyi, ona alternativ olacaq qüvvəyə sahiblənməyi təklif edir.

İlham Əliyev məmləkəti üçün hansısa şəbəkələrin "beşinci kolon"una, müstəqilliyin qəniminə çevrilən müxalifət istəmir.

İlham Əliyevin istədiyi dövlət mənafeyini qorumağa köklənən, yeri gələndə iqtidarı, lap elə Prezidenti sərt tənqid edən, hakimiyyətin səhvlərini açan, onunla əsl seçki rəqabəti aparan müxalifətdir.

İlham Əliyev yeni təşəbbüsləri, təklifləri, tənqidləri ilə Azərbaycanın intibahına kömək olacaq müxalifət istəyir.

İlham Əliyev elə bir müxalifət istəyir ki, onunla bərabər tarixin ən qüdrətli Azərbaycanını qursun...

İlham Əliyevin sükanı arxasında olduğu dövlət inkişafın düzgün magistralındadır, bu quruculuğa hər gün daha bir kərpic qoyulur, bünövrəsi daha da möhkəmləndirilir.

*İlham Əliyev bu dövlətin yalnız müstəqilliyini və təhlükəsizliyini gücləndirmir, sosial gücünü, iqtisadi rifahını yaratmır, həm də onun siyasi sistemini yenidən formalaşdırır. Dünyanın yeni siyasi konfiqurasiyasında söz sahibinə çevrilən Azərbaycanın yeni siyasi konfiqurasiyasında nüfuz sahib olmaq isə siyasi partiyalardan xüsusi fəallıq, təşəbbüskarlıq tələb edir.*

*Prezident ilk addım atdı. Növbə siyasi opponentlərdədir...*

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

# "Qara qızıl"ın qara günü

## Azərbaycanın bu mərhələni də itkisiz keçirmək üçün yetərincə iqtisadi imkanları var



*Əvvəli 1-ci səh.*

Amerikanın Dow Jones və NASDAQ indeksləri də hadisələrdən itkisiz çıxmadılar. Qonşu Rusiyanınsa "Qazprom", "Rosneft", "Novateka" və s. kimi iri şirkətlərinin London fond birjalarındakı qiymətli kağızları xeyli ucuzlaşdı.

Bu siyahını uzatmaq da olar. Amma yəqin sadaladığımız faktlar da kifayət edər ki, neftin qiymətinin dünya iqtisadiyyatı üçün nə demək olduğu dərk edilsin. Dərk edilsin ki, ona əl qoyanlar odla oynayırlar, o odla ki, onda özlərinin də yanmayacaqlarına zəmanət yoxdur. Elə budəfəki kimi.

Deməli, OPEC+un neftin kəskin ucuzlaşmasına səbəb olan 6 mart toplantısında tərəflər nəinki gündəlik neft hasilatını daha 1,5 milyon barel azaltmaq, hətta əvvəlki məhdudiyyəti uzatmaq barədə razılığa gələ bilmədilər. Bu azmış kimi, OPEC-də əsas oyunçu sayılan Səudiyyə Ərəbistanı özünün Avropa, Asiya və Amerikadan olan müştərilərinə son 20 ilin ən böyük güzəştini (bir barel üçün 6-8 dollar) təklif etdi. Rusiya isə neft hasilatının həcmini müəyyən etməyi şirkətlərinin ixtiyarına buraxacağını bildirdi. Hasilatın azaldılması ilə razılaşmadığını isə onunla əsaslandırdı ki, belə halda ABŞ yüngül neft hasilatını artıraraq həmin boşluğu doldurur, yəni məqsədə çatmağa imkan vermir.

Nəzərə alsaq ki, Səudiyyə Ərəbistanı və Rusiya dünyanın ən iri neft hasilatçıları və ixracatçılarıdır, onda martın 9-da "qara qızıl"ın başına gələn "qara oyun"un səbəbi aydın olur. Həm də o aydın olur ki, bu iki ölkənin özü qəbul etdikləri qərarlardan digərlərindən az ziyan görmədilər. Qonşumuzun aparıcı şirkətlərinin qiymətli kağızlarının qiymətsizləşməsi və rublun kursunun xeyli aşağı düşməsi fonunda Səudiyyə Ərəbistanının Saudi Aramco neft kampaniyasının səhmləri də 9 faizdən çox ucuzlaşaraq 30 riala (8 dollara) endi.

Düzdür, elə martın 9-u günortadan başlayaraq neftin qiyməti bir qədər bahalaşaraq markasından asılı olaraq təxminən 33-37 dollar civarında sabitləşmişdir. Cavab olaraq birjalarda da vəziyyət düzəlməyə doğru gedir. Lakin iki nəhəng neft ölkəsinin aralarında razılığa gələ bilməmələri öz işini görmüşdür - dünya iqtisadiyyatında onsuz da koronavirus səbəbindən başlayan tənəzzül sürətlənmişdir. İndi qalır bütün bunlardan çıxış yolu tapmaq.

Bu baxımdan neft-qaz ölkəsi sayılan Azərbaycanda vəziyyət daha yaxşıdır. Vaxtında görülən tədbirlər hesabına kifayət qədər (52 milyard dollardan çox) valyuta ehtiyatımızın olması və digər iqtisadi imkanlarımız bizim bu kimi gözlənilməz hadisələrdən sığortalanmağımızı təmin edir.

Martın 10-da Baş Nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabinetində qlobal enerji bazarında vəziyyət və onun iqtisadiyyatına təsirinə dair məsələlərin müzakirəsi ilə bağlı keçirilən müşavirədə də bu, bir daha vurğulanmışdır. Bildirilmişdir ki, Azərbaycan hökuməti dünya iqtisadiyyatında gedən prosesləri diqqət mərkəzində saxlayaraq baş verə biləcək neqativ iqtisadi tendensiyaların ölkəmizə mənfi təsirlərinin neytrallaşdırılması üçün preventiv tədbirlər planlarına malikdir. Qeyd olunmuşdur ki, bu çərçivədə neftin qiymətinin kəskin ucuzlaşmasının tədiyə balansına təsirlərinin proqnoz ssenariləri hazırlanmış və həmin ssenarilərə uyğun zərurət yaranacağı hallarda müvafiq sabitləşdirici tədbirlər paketi həyata keçiriləcək. Müşavirədə bir fikir də səslənmişdir ki, dünyada baş verən neqativ meyillər fonunda Azərbaycan iqtisadiyyatı dayanıqlıq nümayiş etdirir, ölkəmizin maliyyə imkanları genişlənir. Bu gün iqtisadiyyatımız 2014-cü ildən başlanan qlobal maliyyə iqtisadi böhranı dövründən daha dayanıqlıdır. Əvvəlki illərdə olduğu kimi, 2020-ci ildə də yüksək inkişaf dinamikası davam edir. Təkcə bu ilin yanvar-fevral aylarında ÜDM istehsalı ümumilikdə ölkə üzrə 2,8, o cümlədən qeyri-neft sektorunda 6,7 faiz artmışdır. Vurğulanmışdır ki, neft bazarında, qlobal iqtisadiyyatda baş verən hadisələrə qarşı Azərbaycan iqtisadiyyatının kifayət qədər yüksək maliyyə immuniteti və "təhlükəsizlik yastığı" mövcuddur. Ötən ilin yekunlarına görə, strateji valyuta ehtiyatlarımız ÜDM-in 100 faizini ötmüş, xarici dövlət borcumuzu 6 dəfə üstələmişdir. Bir sözlə, müşavirədən çıxan nəticə bu olmuşdur ki, ölkəmizin valyuta bazarında sabitliyin və manatın məzənnəsinin qorunması məqsədilə zəruri tədbirlər görülməsi üçün bütün imkanlar mövcuddur.

Bütün bunlara baxmayaraq, bu gün ölkə əhalisi arasında bir devalvasiya qorxusu yaşanır və o üzdən valyutadəyişmə məntəqələrinin qarşısında növbələr yaranır. Azərbaycan Banklar Assosiasiyasının rəhbəri Zakir Nuriyev növbələr barədə bunları demişdir: "Banklara sadəcə bildirilib ki, hər bir müştərinin tələbinin ödənilməsi üçün qanun çərçivəsində bütün zəruri tədbirləri görsünlər. Bu, bankların qarşısında duran vəzifədir və onlar bunu yerinə yetirməyə çalışırlar. Müştərilərdən də xahiş edilir ki, hər hansı təşvişin, növbələrin yaranmasına səbəb olacaq hərəkət etməsinlər və banklara adi rejimdə öz funksiyalarını yerinə yetirmələri üçün şərait yaratsınlar".

Həqiqətən, əhali olaraq biz belə gərgin zamanda evimizdə və cibimizdə olan manatı dollara çevirmək üçün bankların qarşısında növbəyə dayanmaq əvəzinə, gərək təmkin, anlam nümayiş etdirək, iqtisadiyyatımıza güvənimizi itirməyək. Bir daha iqtisadçı təhlilçilərin adından təkrar edirik: Azərbaycanda bu gün devalvasiya üçün fundamental əsas yoxdur. Qaldı bəzi məlum milli valyutaların ucuzlaşmasına, mütəxəssislər deyirlər ki, müxtəlif ölkələrdə iqtisadi vəziyyət eyni olmur və hərə öz imkanı çərçivəsində qərar verir. Azərbaycanınsa imkanı bu sınaqdan da itkisiz çıxmağa kifayət edir.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# «Mehriban Əliyevanın sayəsində bayramı yeni evimizdə qarşılayırıq»

## Şamaxıda yenidən tikilən və bərpa edilən mənzillərdə Novruz böyük coşqu ilə qarşılanır







*Əvvəli 1-ci səh.*

**◆ Zəlzələ bölgəsindən reportaj**

Şamaxı şəhərində sakinlərlə söhbət zamanı Prezident İlham Əliyev dövlətin zəlzələnin nəticələrinin aradan qaldırılmasını öz üzərinə götürdüyünü və bütün qəzalı evlərin qısa müddət ərzində ya bərpa ediləcəyini, ya da yenidən tikiləcəyini bildirmişdi.

Eyni zamanda zəlzələdən sonra Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin nümayəndələri də dərhal təbii fəlakətdən zərərçəkən ərazilərdə olunmuş yeraltı təkanların vurduğu fəsadları araşdıraraq sakinlərin müraciətlərini qeydə almışdılar. Elə Maarif Səfərova məxsus evin yenidən inşasını da Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu həyata keçirmişdir.

Bu barədə danışan Maarif Səfərovun oğlu Zamiqin sözlərinə görə, keçən il fevralın 5-də baş verən dağıdıcı zəlzələdən sonra evləri qəzalı vəziyyətə düşmüşdü: "Müraciətimizdən sonra dərhal Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri gəlib evə baxdılar və burda yaşamağın qeyri-mümkünlüyü ilə bağlı rəy verdilər. Ağır vəziyyətə düşmüşdük. Sonra Heydər Əliyev Fondundan gəldilər. Onlar da vəziyyətlə tanış oldular. Dedilər ki, Mehriban xanımın tapşırığı ilə bizim üçün yeni ev tikəcəklər. Necə demişdilərsə, elə də oldu. Cəmi iki aya evi söküb yerində tikdilər və iyul ayında bizə təhvil verdilər. Yeni evimiz 3 otaqlıdır, sahəsi əvvəlkindən də böyükdür. Heydər Əliyev Fondu tərəfindən yeni mebellə də təmin olunduq. Mehriban Əliyevanın sayəsində bu gün bayramı yeni evimizdə qarşılayırıq".

Sentyabr ayında isə ailənin həyatında başqa bir əlamətdar hadisə baş verdi. Şamaxıda səfərdə olan Mehriban Əliyeva qızı Leyla Əliyeva ilə Muğanlı kəndinə gələrək onların qonağı oldular, xeyir-dualarını verdilər.

### "İlham Əliyevi görməyi arzulayırdım"

Qeyd edək ki, dağıdıcı zəlzələ vaxtı ən çox zərər Şamaxı şəhərinə dəyib, burada daha çox fərdi evlər və təsərrüfatlar dağıntıya məruz qalıb. Ona görə zəlzələdən sonra aparılan yenidənqurma, bərpa və təmir işləri əsasən Şamaxının rayon mərkəzini əhatə edib. İndiyə qədər isə işlərin böyük əksəriyyəti yerinə yetirilib. Təməli Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın martın 7-də Şamaxıya etdikləri səfər zamanı qoyulan 44 mənzilli bina ötən ilin payızında sakinlərin ixtiyarına verilib.

Şamaxı səfərimiz zamanı həmin binanın sakinləri ilə də görüşərək, onların yeni evdə keçirdikləri ilk Novruz sevinclərinə şərik olduq. Xatırladaq ki, ötən ilin dekabrın 5-də Prezident İlham Əliyev Şamaxı rayonuna gəlişi zamanı bu binada yaradılmış şəraitlə tanış olub. Elə ilk qarşılaşdığımız Fərda Həsənov binanın yeni sakinlərindəndir. Zəlzələdən sonra şəhərin Gənclər küçəsindəki evləri tamamilə dağılıb. Olduqca çətin günlər keçirən ailə yeni binada üçotaqlı, təmirli, mebelli mənzillə təmin edilib. Keçən il dekabrın 5-də Şamaxıya gələn İlham Əliyev onların qonağı olub.

Fərda Həsənovun 75 yaşlı anası Xuraman Həsənova olub keçənləri belə xatırlayır: "Gecənin bir aləmi oyandıq ki, yer-göy titrəyir. Hamımız qaçdıq küçəyə, gördük qonşular da evləri tərk edib bayıra çıxıblar. Biz uşaq olanda atam bizə Şamaxıda baş verən zəlzələlərdən danışmışdı. Şamaxının tarixində güclü zəlzələlər çox olub. Şükürlər olsun ki, bu zəlzələdən ölüm-itim olmadı. Amma çox çətin günlər yaşadıq. Uçmuş evimizin zirzəmisi salamat idi. Qışın soyuğunda bir müddət orada yaşadıq. Sağ olsun Prezidentimiz, Allah ona uzun ömür versin. İlk gündən şamaxılıların problemini diqqətdə saxladı, neçə dəfə Şamaxıya gəldi. Elə arzulayırdım ki, İlham Əliyev Şamaxıya gələndə onu görüm. Tez-tez yuxumda görürdüm. Dekabrın 5-də birdən dedilər ki, Prezident sizin evə gəlir. Rəbbim arzumu çin etdi. Sevincimin həddi-hüdudu yox idi. İlham Əliyev qonağımız oldu, evimizə baxdı, yaşayışımızla maraqlandı. Bizi yeni evlə təmin etdiyinə görə çay süfrəsi ətrafında ailəlikcə təşəkkürümüzü bildirdik".

Zəlzələ baş verən gündən iyun ayına qədər təkcə Şamaxı Rayon İcra Hakimiyyətinə və Fövqəladə Hallar Nazirliyinin 112 qaynar xəttinə ümumilikdə 6251 müraciət daxil olub. Qəzalı evlərin bir qismi yenidən tikilib. Sakinlərin bir hissəsi isə çoxmənzilli binalarda evlə təmin olunublar. Heydər Əliyev Fondu tərəfindən isə Şamaxı rayonunda zəlzələdən sonra qəzalı vəziyyətə düşmüş 35 fərdi ev sökülərək tamamilə yenidən tikilib. 12 evdə təmir bərpa işləri aparılıb.

Bu gün Şamaxıda neçə-neçə ailə yeni evində ilk Novruzun sevincini yaşayır. Onların hər biri problemlərinə dərhal reaksiya verdiklərinə, haraylarına çatdıqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirirlər. Çünki məhz onların diqqəti və qayğısı ilə bu ailələr yenidən isti yuvalarına qovuşublar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# «Hazırda bütün banklarda əhalinin ala biləcəyi qədər xarici valyuta var»

Bu sözləri Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Elman Rüstəmov jurnalistlərə müsahibəsində deyib.

Dünyada koronavirusun coğrafiyasının genişlənməsi, qlobal iqtisadi proseslərdə - ticarətdə, iqtisadi artımda baş verənlər və qiymətləndirmələr, proqnozlar və bunların təsiri altında martın əvvəllərində neftin qiymətində azalmaların müşahidə olunduğunu deyən E.Rüstəmov bildirmişdir ki, baş verən proseslər ölkəmizdə aparılan sosial-iqtisadi proseslərdən qaynaqlanmır: "Hətta deyərdim tam əksinədir. Ölkəmizdə iqtisadi inkişaf sürətlənir, maliyyə, makroiqtisadi sabitlik hökm sürür. Neftin qiymətinin düşməsi ölkənin nə ticarət, nə də tədiyyə balansında əhəmiyyətli problem yaratmaq iqtidarındadır. Bu, bazar iştirakçılarının, ilk növbədə, əllərində nağd manat olan əhalinin reaksiyasıdır" deyən AMB-nin sədri vurğulamışdır ki, hökumətin, Mərkəzi Bankın əsas gördüyü iş bu gözləntiləri müsbət gözləntiyə çevirməkdir.

Bunun üçün bütün tədbirlərdən istifadə edildiyini deyən E.Rüstəmov martın 10-da valyuta hərracı keçirildiyini və bütün tələbat ödənildiyini nəzərə çatdırmışdır. "Bu gün növbədənkənar hərrac oldu və bütün tələbat ödənildi, amma tələbat hərracda iki dəfədən çox aşağı düşdü" deyən sədr nağd valyuta ehtiyatlarının yaradıldığını və bankların bütün tələblərinin gün ərzində hərracda tam şəkildə ödənildiyini nəzərə çatdırmışdır: "Hazırda banklarda əhalinin ala biləcəyi qədər xarici valyuta var. Ola bilər, müəyyən bankların kifayət qədər valyuta alması üçün resursları olmasın. Amma banklar bu zaman bir-birinə kömək edirlər".

E.Rüstəmov sonra bildirmişdir: "Milli valyutanı dollara çevirən əhalini sakitliyə çağırıram. Hökumətin, Mərkəzi Bankın həyata keçirdiyi tədbirlərdən görünür ki, biz buna tam şəkildə hazırıq. Hökumətin və Mərkəzi Bankın "B" planı var. Bu plan məhz neftin 30-35 dollar qiymətinə hazırlanıb. Faktiki olaraq hökumət bu planla fəaliyyət göstərir. Biz bu problemi tez bir zamanda həll etmək əzmindəyik".

Sədr onu da vurğulamışdır ki, bu gün strateji valyuta ehtiyatlarından istifadə haqqında düşünmürük. "Ölkənin kifayət qədər valyuta ehtiyatı var. Dövlət Neft Fondunun transfertləri dəyişmir. Mərkəzi Bankın öz ehtiyatları, Maliyyə Nazirliyinin əhəmiyyətli ehtiyatları mövcuddur. Biz bütün ehtiyatlardan tam istifadə edəcəyik. Güman edirəm ki, problem biz gözlədiyimizdən daha tez başa çatacaq. Lakin bizim strateji valyuta ehtiyatlarımızın olduğunu da unutmaq lazım deyil", - deyə AMB-nın sədri bildirmişdir.

Qabaqlayıcı tədbirlər səmərə verir

# UNEC-də bütün dərslər distant keçiriləcək

**Martın 12-dən UNEC-də bütün dərslər distant tədris olunacaq.**







Koronavirusla bağlı zəruri tədbirlərin görülməsilə əlaqədar dərslərin müvəqqəti dayandırıldığını nəzərə alaraq, təhsilin davamlılığının təmin edilməsi məqsədilə UNEC-də bütün dərslər distant formada təşkil ediləcək.

Tətbiq ediləcək distant təhsil əyani təhsilin alternativi kimi düşünülüb. Distant təhsilə istənilən məkandan mobil telefon və internetlə qoşulmaq mümkündür. UNEC Eksterndə distant formada təşkil edilən dərslər müvafiq proqramla nəzərdə tutulan dərsləri əvəz edəcək. Sistemə qoşulan tələbə avtomatik olaraq elektron jurnalda "iştirak edir" kimi qeydiyyata alınacaq. Hər bir tələbə müəllimə distant dərs zamanı sual vermək imkanına malikdır.

Müəllimin distant formada keçdiyi mühazirə avtomatik olaraq videoarxivləşdiriləcək və hər bir tələbə həmin mühazirəni dərsdən sonra da dinləyə və görə biləcək. Dərs cədvəli və bununla bağlı ətraflı məlumat tələbələrin şəxsi kabinetlərinə göndəriləcək.

Distant təhsil müddətində Qaynar xətt (1846) və Call center (1846-1- 1501; 1846-1-1502) gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. Yarana biləcək suallar UNEC Distant Facebook (facebook.com/unecdistant) səhifəsi üzərindən və extern@unec.edu.az e-ünvanından operativ cavablandırılacaq.

Distant tədris müddəti Nazirlər Kabinetinin müəyyən etdiyi dövrü (2020-ci il mart ayının 10-dan 20-dək) əhatə edəcək.

Xatırladaq ki, Nazirlər Kabinetinin sərəncamına əsasən, yoluxma hallarının qarşısının alınması və ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin davam etdirilməsi məqsədilə 2020-ci ilin mart ayının 10-dan 20-dək (ilk tədris günü mart ayının 27-si müəyyən edilir) bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi dayandırılır və bununla bağlı bütün tədbirlər təxirə salınıb.

*"Azərbaycan"*

## Azərbaycanın daha iki vətəndaşında koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasının iki vətəndaşında koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Nazirlər Kabinetinin yanında operativ qərargahdan AZƏRTAC-a verilən məlumata görə, İran İslam Respublikasında müalicə olunduqdan sonra Azərbaycana qayıdan 1969-cu il təvəllüdlü qadının səhhətində problemlər yarandığından xəstəxanaya müraciət edib. Müayinələr zamanı onda ağır autoimmun xəstəlik olan qırmızı qurdeşənəyi, 4-cü sinif lupus nefriti və xroniki böyrək çatışmazlığının olduğu müəyyən edilib. Eyni zamanda, müayinələr zamanı həmin şəxsin koronavirus infeksiyasına yoluxduğu aşkarlanıb. Hazırda xüsusi rejimli xəstəxanaya yerləşdirilmiş xəstənin səhhəti orta ağır qiymətləndirilir, onun müalicəsi ilə bağlı müvafiq tədbirlər görülür.

İtaliyadan qayıdan 1997-ci il təvəllüdlü tələbədə isə yüksək bədən hərarəti müşahidə olunub, müayinə zamanı onun koronavirus infeksiyasına yoluxduğu müəyyən edilib, həmin şəxs xüsusi rejimli xəstəxanaya yerləşdirilib. Xəstənin vəziyyəti sabitdir.

Bundan əvvəl koronavirus infeksiyasına yoluxma faktı qeydə alındıqdan sonra xüsusi rejimli xəstəxanaya yerləşdirilmiş 1938-ci il təvəllüdlü Azərbaycan Respublikası vətəndaşının səhhəti sabit ağırdır. Xəstə ciddi nəzarət altında saxlanılır və müalicəsi ilə bağlı bütün zəruri tədbirlər həyata keçirilir.

Koronavirus infeksiyası aşkarlanmış digər şəxslərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam edir, onların səhhətləri hazırda sabit normaldır.

# Azərbaycanda koronavirusa qarşı təxirəsalınmaz tədbirlər davam edir

## Ölkədə virusa yoluxmuş üç nəfər artıq sağalıb

**Azərbaycanda koronavirus infeksiyası ilə bağlı vəziyyət ciddi nəzarət altındadır. Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradılıb.**




Virusun yayılmasının qarşısının alınması və profilaktikası, əhalinin sağlamlığının mühafizəsi ilə bağlı bütün lazımi tədbirlər ən yüksək səviyyədə davam etdirilir.

Koronavirus təhlükəsinə görə, paytaxtda və respublikanın müxtəlif regionlarında mart ayında keçirilməli olan ənənəvi Novruz şənlikləri ləğv edilib.

Nazirlər Kabinetinin yanında Operativ Qərargahın yaydığı məlumatda bildirilir ki, virusun dünya üzrə əhatə dairəsi genişləndiyindən ölkəmizdə də müvafiq profilaktik tədbirlər gücləndirilib. Qərargah mütəxəssislərlə aparılan məsləhətləşmələrdən və Dünya Səhiyyə Təşkilatının tövsiyələrindən irəli gələrək ayrı-ayrı qurumları yaxın müddətdə hər hansı kütləvi tədbir keçirməməyə, artıq təyin olunan tədbirlərin tarixini isə dəyişdirməyə çağırır. Həmçinin adamların sıx toplaşdığı məkanlarda virusa yoluxma riski yüksək olduğundan, qarşıdakı aylarda toy və bu cür məclislərin təxirə salınması, yas mərasimlərinin isə kütləvi keçirilməməsi tövsiyə edilir.

Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan hökuməti tərəfindən aparılan tədbirlərə dəstək olaraq vətəndaşlar bir daha adamların sıx toplaşdığı yerlərdən, qapalı məkanlardan uzaq durmağa, xarici ölkələrə, eyni zamanda risk qrupu ölkələrinə səfərlərini təxirə salmağa, vacib səfərlər zamanı isə qoruyucu tədbirlərə maksimum riayət etməyə çağırılır.

### Ölkə xaricindən gələnlər 14 gün ərzində bunlara riayət etməlidirlər

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) ölkə xaricindən gələnlər üçün 14 gün müddətində etməli olduqları qaydaları açıqlayıb. TƏBİB-dən verilən məlumata görə, ölkə xaricindən son 14 gün ərzində gələnlər buradakı ilk 14 günlərini evdə keçirməlidirlər.

Həmin şəxslərin olduqları məkan tez-tez havalandırılmalıdır. Onlar mümkün qədər az insanla təmasda olmalıdırlar. Yaşlı və xroniki xəstəliyi olan insanlarla təmas olmamalı, əllər sabunla tez-tez yuyulmalıdır. Evdən çıxanda mütləq maska taxılmalıdır. Soyuqdəymə əlamətlərində mütləq 103 (Bakı daxili) və 113 (Bakıdan kənar) təcili yardım nömrələrinə zəng edilməlidir.

### Məktəblərin bağlanması ilə əlaqədar teledərslərə start verilib

Nazirlər Kabinetinin sərəncamına əsasən, yoluxma hallarının qarşısının alınması və ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin davam etdirilməsi məqsədilə 2020-ci ilin mart ayının 10-dan 20-dək (ilk tədris günü mart ayının 27-si müəyyən edilir) bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi dayandırılıb və bununla bağlı bütün tədbirlər təxirə salınıb.

Ona görə də martın 11-dən etibarən "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin "Mədəniyyət" kanalında "Dərs vaxtı" adlı teledərslərə start verilib. Təhsil Nazirliyi ilə birgə həyata keçirilən layihə səhər saat 10:00-da başlayıb, fasilələrlə saat 16:00-dək davam edir.

Teledərslər bütün sinifləri əhatə edir, dərs mövzularına dair qısa izah və təlimatlar təqdim olunur. Belə ki, ibtidai sinif şagirdləri üçün "Azərbaycan dili", "Riyaziyyat", "Həyat bilgisi", "Təsviri incəsənət", "Xarici dil", 5-11-ci sinif şagirdləri üçün isə "Azərbaycan dili", "Riyaziyyat", "Xarici dil", "Tarix", "Coğrafiya", "Kimya", "Fizika", "Biologiya" fənləri üzrə qısa videodərslər təqdim edilir. Dərslər mart ayının 27-nə kimi həftəiçi hər gün yayımlanacaq.

### Qoruqlarda da dezinfeksiya işi aparılıb

Dövlət Turizm Agentliyinin (DTA) tabeliyində fəaliyyət göstərən qoruq və təhsil müəssisələrində 5-7 martda koronavirus (COVID-19) epidemiyasına qarşı tibbi-profilaktik, dezinfeksiyaedici tədbirlər həyata keçirilib.

DTA-dan verilən məlumata görə, Nazirlər Kabinetinin yanında Operativ Qərargahın bütün təhsil müəssisələrində dezinfeksiya işlərinin aparılması ilə bağlı qərarına uyğun olaraq Azərbaycan Turizm və Menecement Universiteti, Bakı Turizm Peşə Məktəbi və Mingəçevir Turizm Kollecinin tədris binalarında və həyətyanı sahələrində bu istiqamətdə tədbirlər görülüb.

Eyni zamanda Şəkinin "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun Narın Qala divarları daxilində, eləcə də digər obyektlərdə dezinfeksiya işləri aparılıb, qabaqlayıcı tədbirlərin həyata keçirilməsi intensivləşdirilib.

Dezinfeksiya işləri qoruğun inzibati binalarında, Şəki Xan Sarayı və onun həyətində, Dairəvi Məbəd, Şəki xanlarının ev muzeyi, Şəki Tarix-Diyarşünaslıq Muzeyi, Şəki Dövlət Rəsm Qalereyası, "Sənətkarlar evi" binası və digər obyektlərdə həyata keçirilib.

"Kiş" Tarix-Memarlıq Qoruğunun obyektlərində də dezinfeksiya işləri baş tutub. Dezinfeksiya işlərinin aparıldığı obyektlər martın 8-dən etibarən xidmətə açılıb. Mart və aprel ayları ərzində Dövlət Turizm Agentliyinin tabeliyindəki digər qoruqlarda da önləyici tədbirlərin görülməsi planlaşdırılır.

### Daxili turizm üzrə layihələrdə dəyişiklik yoxdur

DTA-nın mətbuat katibi Kənan Quluzadə məlumat verib ki, yanvar və fevral aylarında Azərbaycana gələnlərin sayı artıb. Fevral ayının sonunda ötən illə müqayisədə Azərbaycana gələn turistlərin sayında 17 faizə yaxın artım müşahidə olunub. Bu dövr koronavirusun başlanğıc dövrü olduğu üçün bu sahədə geriləmə rəqəmlərdə özünü göstərməyib.

Onun sözlərinə görə, həmin dövrdə qonşu ölkələrdən - Rusiya, İran, Gürcüstandan Azərbaycana gələnlərin sayı artıb. Ancaq mart-aprel aylarında qlobal böhranın təsiri turizmdə hiss ediləcək.

Agentliyin Aparat rəhbəri Kənan Qasımov isə qeyd edib ki, koronavirus təhlükəsinə görə dünya turizmində 30-40 faizə qədər azalma müşahidə olunur: "Ancaq məlumatlar gündəlik olaraq dəyişir. Hazırda panika üçün səbəb yoxdur".

K.Qasımov deyib ki, Azərbaycan prosesin idarəedilməsini kifayət qədər yüksək aparır: "Hesab edirik ki, Azərbaycan bu böhranı keçə biləcək. Bizim daxili turizm üzrə layihələrimizdə dəyişiklik yoxdur və bütün layihələr öz axarı ilə davam edir".

### Koronavirus infeksiyası aşkarlanmış şəxslərin səhhəti ciddi nəzarət altındadır

Nazirlər Kabinetinin yanında Operativ Qərargahdan verilən məlumata görə, 10 mart tarixində İran İslam Respublikasından qayıdan Azərbaycan Respublikasının 1960-cı və 1984-cü il təvəllüdlü iki vətəndaşında koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Müvafiq qaydalara uyğun olaraq həmin şəxslər xüsusi rejimli xəstəxanalara yerləşdiriliblər. Məlumata əsasən, hazırda pasiyentlərin səhhəti normaldır, vəziyyətləri sabitdir. Həmin şəxslərin müalicəsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

Bildirilib ki, əvvəl koronavirus infeksiyasına yoluxduqları müəyyən edilmiş 1973-cü, 1997-ci və 1998-ci il təvəllüdlü 3 Azərbaycan vətəndaşı xüsusi rejimli xəstəxanalarda müvafiq müalicə alaraq sağalıb və evə buraxılıb.

Koronavirus infeksiyası aşkarlanmış digər şəxslərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir, onların səhhəti ciddi nəzarət altında saxlanılır.

### Koronavirus dünyada

Çinin Uhan şəhərindən yayılan koronavirus dünyanı bürüməkdə davam edir. Son məlumata əsasən, 119 ölkə üzrə ümumilikdə 119220 (yeni 297) yoluxma halı baş verib. Koronavirusdan ölənlərin ümumi sayı 4299 (yeni 25), sağalanlar isə 66564 (yeni 1400) təşkil edir.

Türkiyənin Səhiyyə naziri Fahrettin Koca ölkədə koronavirusa ilk yoluxma hadisəsinin qeydə alındığını bildirib. Nazir deyib ki, xəstə kişidir. Türkiyə vətəndaşı olan həmin şəxs bu yaxınlarda Avropadan qayıdıb. Onun vəziyyəti sabitdir və karantinə yerləşdirilib.

Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı nazirinin müavini Yuri Nozadzenin koronavirusa yoluxması təsdiqlənib. Nazirliyin məlumatında bildirilib ki, nazir müavininin analizləri martın 10-da müsbət cavablanıb. Hazırda onun ailəsinin də izolyasiya şəraitində qaldığı bildirilir.

Çin Xalq Respublikasında koronavirusla bağlı vəziyyət yaxşılaşmaqdadır. Belə ki, son sutka ərzində virusa yoluxan 1578 nəfər sağalıb, 24 nəfər xəstəliyə yoluxub, 22 nəfər isə həyatını itirib. Gigiyena və Səhiyyə Məsələləri üzrə Dövlət Komitəsinin məlumatına görə, ümumilikdə ölkədə koronavirusa yoluxan xəstələrin sayı 80,7 min nəfərə çatıb, onlardan 61,4 min nəfəri sağalıb, 3158 nəfəri ölüb.

Çin hökuməti virusun yayılmasının azaldığı üçün Uhanda yaradılmış müvəqqəti xəstəxanaları bağlamaq qərarı verib.

### İtaliyada olan Azərbaycan vətəndaşlarına müraciət edildi

İtaliya Nazirlər Şurasının yanında Mülki Müdafiə departamentinin yaydığı son məlumata (9 mart, 18:00) görə, ölkə ərazisində virusa yoluxanların sayı 7985 nəfər, virusdan ölüm halları isə 463 nəfər təşkil edir və 724 nəfərdə sağalma qeydə alınıb.

İtaliya ərazisində koronavirus epidemiyasına yoluxanların sayında kəskin artımın qeydə alınması ilə əlaqədar olaraq, virusun daha geniş ərazilərə nüfuz etməsinin qarşısının alınması məqsədilə martın 9-da İtaliya hökuməti tərəfindən əlavə təxirəsalınmaz və preventiv tədbirlərin görülməsini nəzərdə tutan yeni qərar qəbul edilib. Qərarı baş nazir Cüzeppe Konte imzalayıb.

Azərbaycan Respublikası Diaspora İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, yeni qərarda martın 10-dan aprelin 3-dək İtaliyanın bütün ərazisinin "qapalı zona" elan olunduğu bildirilib.

Virusun ilk olaraq yayıldığı "qırmızı zona"da Lombardiya regionunda və digər 14 əyalətdə tətbiq olunan aşağıdakı ciddi qayda və məhdudiyyətlərin bütün ölkə ərazisinə şamil olunması nəzərdə tutulur:

- *iş xarakterli və ya sağlamlıq vəziyyəti ilə əlaqədar olanlar istisna olmaqla, giriş və çıxışın qadağan olunması. Zəruri ərzaq məhsullarının alınması məqsədilə hər ailədən yalnız bir nəfərin evdən çıxmasına icazə verilməsi, maksimum çox vaxt ərzində evdə qalmağa üstünlük verilməsi;*
- *virusa yoluxmuş bütün şəxslər üçün məcburi və ciddi karantin rejiminin tətbiq olunması;*
- *bütün təhsil müəssisələrinin bağlanması;*
- *bütün muzey, kino, teatr, idman zalları, istirahət mərkəzləri, diskoteka, bar və oyun mərkəzlərinin bağlanması;*
- *futbol oyunları da daxil olmaqla bütün kütləvi tədbirlərin qadağan olunması;*
- *yalnız ərzaq mağazalarının saat 6:00-dan 18:00-dək məhdud rejimdə çalışması və müştərilər arasında 1 metrlik təhlükəsizlik məsafəsinin qorunmasına ciddi nəzarət edilməsi;*
- *kilsə və digər dini mərkəzlərin məhdud rejimdə çalışması, bütün kütləvi mərasimlərin keçirilməsinin qadağan olunması və s.*

Qərarda qeyd olunan təhlükəsizlik qaydalarının pozulmasına görə inzibati və cinayət məsuliyyəti də nəzərdə tutulur.

İtaliya ərazisində olan və müvəqqəti səfərə gəlmiş xarici ölkə vətəndaşlarına və turistlərə öz ölkələrinə qayıtmalarına icazə verilir.

Azərbaycanın İtaliyadakı səfirliyi bu ölkə ərazisində olan bütün azərbaycanlıların baş verən epidemioloji vəziyyət ilə bağlı İtaliya hökumətinin qəbul etdiyi qayda və tövsiyələrə ciddi əməl etməyini xahiş edir.

### Koronavirusdan qorunmaq üçün...

Dünya Səhiyyə Təşkilatının, Səhiyyə Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin koronavirusla bağlı əhaliyə tövsiyələri:

- *əllərinizi yuyun: öskürdükdən və asqırdıqdan sonra, xəstələrə qulluq edərkən, yemək hazırlayarkən, əllərinizi çiy və bişmiş qidalara toxundurduqda;*
- *öskürərkən və ya asqırarkən ağız və burnunuzu dəsmal, köynəyinizin qolu və ya dirsək bükümünüzlə örtün;*
- *istifadə olunmuş dəsmalları qapalı zibil qutusuna atın;*
- *xəstə insanlarla (onların gözlərinə, burnuna və ya ağzına toxunmaq) və ev, ferma və ya vəhşi heyvanlarla qorunmamış təmasdan çəkinin;*
- *ət məhsullarını və yumurtanı tam bişirin;*
- *heyvanlar və heyvan məhsulları ilə işləyərkən qoruyucu xalat, əlcək və qoruyucu maska (üz qoruyucusu) geyinin.*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Çində koronavirusa yoluxanların 76 faizi sağalıb



Çində yeni tipli koronavirusa yoluxanların dörddə üçündən çoxu sağalıb evə göndərilmişdir. Xəstəxanalarda təxminən 16 min xəstə qalır. Bu barədə ÇXR Dövlət Səhiyyə Komitəsi məlumat vermişdir.

Çinin materik hissəsində koronavirusa yoluxanların sayı 80778 nəfərə çatmışdır. Onların 61475-i müalicə olunub xəstəxanadan çıxmışdır. Bu, xəstələrin ümumi sayının 76,1 faizidir. Xəstəxanalarda müalicə olunan 16145 nəfərdən 4492-nin vəziyyəti ağırdır.

Epidemiya artıq 3158 nəfərin həyatına son qoymuşdur. Ölkədə ümumi ölüm nisbəti 3,9 faiz təşkil edir.

# Beynəlxalq aləm

## Rusiya Konstitusiyasına dəyişikliklər qəbul olundu

Rusiya Dövlət Duması üçüncü, sonuncu oxunuşda Konstitusiyaya dəyişiklikləri qəbul etmişdir. 383 deputat lehinə səs vermiş, 43 parlamentar bitərəf qalmışdır. Əleyhinə səs verən olmamışdır.




Yenilənmiş Konstitusiyanın əsas normaları prezident hakimiyyətinin xeyli gücləndirilməsi və hazırkı dövlət başçısı Vladimir Putinin prezident müddətlərinin sıfırlanmasına aiddir. Bu, Putinə 2024-cü ildə bir, yaxud iki müddətə (maksimum 12 il) - 2036-cı ilədək Prezident vəzifəsinə yenidən seçilmək imkanı verir. Həmçinin hakimiyyətin müxtəlif qolları arasında səlahiyyətlər qismən yenidən bölünəcək. Məsələn, Federasiya Şurasının üzvü bundan sonra rəsmən senator adlandırılacaq. Eyni zamanda yuxarı palatada prezident kvotası 17-dən 30 senatoradək genişləndirilir. Onların 7-si vətən qarşısında misilsiz xidmətlərinə görə ömürlük senator təyin oluna bilər.

Yeni normalarla Rusiya torpaqlarının bağışlanması və bu cür hərəkətlərə çağırışlar qadağan edilir. Rusiya Federasiyası SSRİ-nin varisi elan olunur. Eyni zamanda Konstitusiyada Allahın adı çəkilir. Rus dili dövlətquran xalqın dili kimi müəyyənləşdirilir, lakin həmin xalqın adı çəkilmir.

Konstitusiyaya dəyişikliklər Federasiya Şurasında və regional parlamentlərdə bəyənilməlidir. Bundan sonra sənəd Prezident tərəfindən imzalanacaq və yoxlanmaq üçün Konstitusiya Məhkəməsinə göndəriləcək. Bütün bunlardan sonra aprelin 22-də planlaşdırılmış ümumrusiya səsverməsi keçirilə bilər.

## Əfqanıstan Prezidenti məhbus talibləri əfv etdi



Əfqanıstan Prezidenti Əşrəf Qani "Taliban" radikal hərəkatının məhbus üzvlərinin əfv olunması və azadlığa buraxılması barədə fərman imzalamışdır. Bu barədə TOLONews telekanalı xəbər verir.

Məlumata görə, təxminən 1500 nəfər sərbəst buraxılacaq. Hər gün 100-ə yaxın məhbus azadlığa çıxacaq. Əfv olunanlar bundan sonra döyüş əməliyyatlarında heç vaxt iştirak etməyəcəkləri barədə yazılı təminat verməlidirlər.

Xatırladaq ki, ötən ayın 29-da Qətərin paytaxtı Dohada ABŞ və "Taliban" hərəkatının nümayəndələri sülh sazişi imzalamışlar. Sazişə uyğun olaraq, etimadın möhkəmləndirilməsi tədbiri kimi hərəkatın 5 minədək tərəfdarı və taliblərin saxladığı 1000 nəfərədək adam azadlığa buraxılmalıdır.

## Meksika Moskva ilə Ər-Riyad arasında vasitəçi ola bilər

Meksika Səudiyyə Ərəbistanı ilə Rusiya arasında neft bazarlarını sarsıtmış qarşıdurmada vasitəçi kimi çıxış edə bilər. Bu barədə ölkənin Maliyyə naziri Arturo Errera məlumat vermişdir.



"Röyter" agentliyinin xəbərinə görə, "Meksika Moskva ilə Ər-Riyad arasında vasitəçi olmaq niyyətindədirmi" sualına cavabında nazir demişdir: "Bəli, biz mümkün vasitəçilik kanalları axtarırıq".

Neftin qiymətinin aşağı düşməsi əsasən "qara qızıl" ixracından asılı olan Meksikanın büdcə gəlirlərinə təhlükə yaradır. "Remex" milli neft şirkəti zərbə altında qala bilər. Böyük məbləğdə borcu olan şirkətin ötən il xeyli ziyana düşdükdən sonra kredit reytinqinin azalması ilə qarşılaşmaq təhlükəsi var.

## "Microsoft" iri haker şəbəkəsinə qarşı əməliyyat keçirdi

"Microsoft" korporasiyası dünyada "Necurs" adlı iri kibercinayətkar şəbəkələrdən birinin seqmentlərini zərərsizləşdirmişdir. Bu barədə "Microsoft"un nümayəndələrinə istinadən "The New York Times" qəzeti xəbər verir. Bu mənbələrin versiyasına görə, "Necurs" dünyada 9 milyona yaxın kompüteri ziyanlı proqramlara yoluxdurmuşdur. Məqsəd kompüterləri nəzarət altına almaq və kompüter avadanlığının sahiblərini şantaj etmək idi.




Kibercinayətkarlara qarşı əməliyyatı korporasiyanın rəqəmsal cinayətlərlə mübarizə şöbəsinin mütəxəssisləri keçirmişlər. "Microsoft" bu əməliyyatı 8 ilə hazırlamış və 35 ölkədən olan həmkarları ilə əlaqələndirmişdir. Qəzetin xəbərinə görə, bu haker şəbəkəsi dövlət səviyyəsində dəstəklənmir. Eyni zamanda, "The New York Times" güman edir ki, cinayətkarlar Rusiya ərazisindədirlər.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, martın 11-də Mingəçevir şəhəri, Kürdəmir və Füzuli rayonlarında sakinlərlə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerində həll edilib. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, müxtəlif ölkələrdə gərginlik, qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması müşahidə olunsa da, Azərbaycan sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalq-iqtidar birliyi, həyata keçirilən siyasətə verilən yüksək qiymət həm iqtidarı daha da ruhlandırır, həm də ölkədə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Artıq uzun illərdir ki, Azərbaycan sabitlik şəraitində yaşayır və bu illər ərzində ölkə çox böyük inkişaf yolu keçib.

